www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 iyul 2018-ci il Çərşənbə axşamı № 147 (7036) Qiyməti 60 qəpik

**Xəbər**

## Qubada istirahət mərkəzində faciə - 1 ölü, iki yaralı

yazısı səh.2-də

**Gündəm**

### Prezident Ərdoğandan Azərbaycana mühüm jest



Andiçmədən sonra ilk səfərini Bakıya edir

yazısı səh.5-də

### Avroparlamentin Azərbaycanla bağlı qərarında AŞ izi

yazısı səh.9-da

### "Bakı artıq İrəvana ultimatum haqqında düşünməlidir" - politoloq

yazısı səh.13-də

### Yunis Səfərovu "yetişdirən" Qum şəhərinin İslam tarixindəki yeri

yazısı səh.14-də

### Xaricdən mobil telefon gətirməyə qoyulan yasağın səbəbi

yazısı səh.14-də

### "Ermənistanda hakimiyyətlə ordu arasındakı etimadsızlıq hökm sürür"- ekspert

yazısı səh.7-də

### Dəhşətli istilər bitdimi...

yazısı səh.12-də

### KTN jurnalistləri bölgələrdə görülən işlərlə tanış etdi

yazısı səh.10-da

### Enerji qəzası baş verən İES-dən xəbər yoxdur

yazısı səh.12-də

### Bakı-Quba yolunda nəqliyyatın hərəkəti qısa müddətlik məhdudlaşdırılacaq

yazısı səh.2-də

### Bakıda oğru girdiyi evdə bıçaqlandı, qarnında bıçaqla xəstəxanaya aparıldı

yazısı səh.2-də

# GƏNCƏ VƏ MİNGƏÇEVİR İŞİ BÖYÜYÜR - HƏBSLƏR BAŞLADI, BƏZİ SAYTLARA GİRİŞ BAĞLANDI

Elmar Vəliyevə sui-qəsd üzrə 12 nəfər saxlandı; respublika ərazisində elektrik enerjisinin kəsilməsi və Gəncə ŞİH başçısı Elmar Vəliyevə qarşı sui-qəsdlə əlaqədar sosial şəbəkələrdə qeyri-qanuni çağırışlar etdiyinə görə daha 20 nəfər cəzalandırıldı - siyahılar




yazısı səh. 4 və 5-də

# ABŞ Ermənistan üçün ağır şərtini açıqladı - Bakı üçün siqnal

Amerikanın İrəvandakı səfirindən Paşinyanın Brüssel səfəri ərəfəsi maraqlı mesajlar; Ağ Ev Ermənistana ciddi maliyyə köməyi göstərməyə tələsmir və "Yol xəritəsi" təklif edir - səbəb

yazısı səh.8-də



*Naqif Həmzəyev:*

### "Kişi ona deyirəm ki..."

yazısı səh.2-də



*Əhməd Şahidov:*

### "Dilqəm Əsgərovla girov saxlandığı yerdə görüşmüş 6-7 şəxslə təmasda oldum"

yazısı səh.11-də



*Fərəc Quliyev:*

### "Ölüm hökmünün bərpasının tərəfdarıyam"

yazısı səh.6-da



## Novruz Məmmədov Ərdoğanın andiçmə mərasiminə qatılıb

### O, baş nazir kimi ilk səfərini Türkiyəyə etdi

**Azərbaycanın baş naziri Novruz Məmmədov iyulun 9-da Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Ankarada keçirilən andiçmə mərasimində iştirak edib.**

Bu, Novruz Məmmədovun baş nazir kimi ilk xarici səfəri sayılır.

Azərbaycandakı siyasi partiyalardan isə Ərdoğanın andiçmə mərasiminə gedən olmayıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasiminə çoxlu sayda dövlət və hökumət başçıları qatılıb.

Mərasimlə bağlı xüsusi təhlükəsizlik tədbirləri görülüb. Məlumata görə, bunun üçün 10 mindən çox polis asayişin qorunmasına yönləndirilib.

Andiçmədə dövlət başçıları və baş nazirlərlə yanaşı, bir sıra ölkələrin nazirləri, parlament rəhbərləri və deputatları da iştirak ediblər.

Qeyd edək ki, R.T.Ərdoğan iyunun 24-də keçirilən prezident seçkilərində 52,5 faiz səslə qalib gəlib.

Rəcəb Tayyip Ərdoğan iyulun 9-da andiçmədən sonra xaricə ilk səfərini Azərbaycana edəcək. İyulun 10-da Şimali Kipr Türk Cümhuriyyətinə baş çəkən Ərdoğan eyni gündə, yəni bu gün Azərbaycana gələcək. Şimali Kiprin dünya birliyi tərəfindən tanınmamış dövlət olduğunu nəzərə alsaq, bu, əslində elə xaricə ilk səfərin ölkəmizə edilməsi anlamı verir.

Səfər ərəfəsində R.T.Ərdoğan Türkiyə ilə Azərbaycan arasında münasibətlərinin ən yüksək səviyyədə olduğunu və daha da inkişaf edəcəyini deyib. Türkiyə prezidenti həmçinin, qeyd edib ki, yeni seçilmiş prezident qismində ilk səfərini məhz Azərbaycana edəcək. Türkiyə dövlət başçısının seçkisonrası bu jesti artıq illərdir formalaşmış bir ənənə halını alıb. Ərdoğanın bu dəfə də seçildikdən sonra xaricə ilk səfərini Azərbaycana eləməsi hər şeydən öncə iki qardaş ölkənin dost-müttəfiqliyinin sarsılmazlığı, Ankara üçün Azərbaycanın məxsusi önəm daşıdığı haqda dünyaya aydın bir mesaj verilmiş olacaq.

**❑ Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

## Bakıda oğru girdiyi evdə bıçaqlandı, qarnında bıçaqla xəstəxanaya aparıldı



**Bakıda qəribə kriminal hadisə baş verib. Minval.info xəbər verir ki, hadisə Xətai rayonu ərazisində verib. Belə ki, 4 oğru ev soymağa girib. Onlardan üçü tutulub, biri isə qarnında bıçaqla xəstəxanaya çatdırılıb.**

Hadisə şahidlərinin verdiyi məlumata görə, oğru özünü qorxudan bıçaqlayıb. Onlara da bunu hadisə yerinə gələn polislər deyiblər.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Deputatların Elmar Vəliyev davası səngimir

### Naqif Həmzəyev: "Kişi ona deyirəm ki..."

**AVP sədri, deputat Fəzail Ağamalının həmkarları Naqif Həmzəyev və İlham Məmmədovla qarşıdurması səngimir. Gəncənin bir həftə öncə sui-qəsdə məruz qalan icra başçısı Elmar Vəliyevə yaxın olan deputatlar N.Həmzəyev və İ.Məmmədov mətbuat və sosial şəbəkələrdə F.Ağamalının üzərinə sərt şəkildə gedərək, ona qarşı ən ağır formada ittihamlar səsləndirirlər.**



Qısa məlumat verək ki, deputatların qarşıdurması F.Ağamalının "Yeni Müsavat"a açıqlamasında E.Vəliyevin Yevlax və Gəncənin icra başçısı olarkən məmura yaraşmayan davranışlar etməsini, özünü apara bilməməsini deməsindən sonra başlayıb. Onun açıqlamasının ardından icra başçısının dəstəyi ilə Yevlaxdan deputat seçilən İ.Məmmədov həmkarını sərt tənqid edib. Daha sonra Naqif Həmzəyev həmkarına facebook səhifəsində status həsr edərək, onun ünvanına sərt tənqidlər səsləndirib.

F.Ağamalı isə bu tənqidlərə "Yeni Müsavat"ın ötən sayında cavab verib. O, N.Həmzəyevi Gəncədə prezidentin son illərdə gedən quruculuq işlərini Elmar Vəliyevin adına çıxmaqda ittiham edib. Bundan əlavə, partiya sədri həmkarının gənc olduğu üçün bu cür danışdığını bildirərək, bir uşağın ona irad tutduğunu vurğulayıb.

"Yeni Müsavat"ın əməkdaşı gəncəli deputata cavab haqqı tanıyaraq, F.Ağamalının onun barəsində dediklərinə rəy alıb. N.Həmzəyev deyib: "Mənim qarşıdurmaya, mənasız şeylərə vaxt sərf etməyə zamanım yoxdur. Cavabımı günlər öncə verdim. İndi kim nə edir, necə edir, bu onun öz işidir. Yıxılana balta vurmağa nə var ki. Bunu hamı bacarır. Kişi ona deyirəm ki, dar gündə dövlətin, millətin və cənab prezidentin yanında olsun. Mən dövlətin, möhtərəm cənab prezidentin yanındayam. Dövlətimizin millət vəkiliyəm. Cənab prezidentin partiyasının namizədliyini irəli sürdüyü və bunun nəticəsində millət vəkili olan insanam. YAP-ın Gəncə Şəhər Təşkilatının sədriyəm. Mən şou-biznes adamı deyiləm ki, qarşıdurmaya gedim. Hər kəsin öz tərbiyəsi var və buna uyğun da danışır. Mənasız məsələlərə toxunub gündəmə gəlmək istəmirəm. Gəncədə terror hadisəsi törədilib, bununla bağlı öz fikrimi bildirdim, video-müraciət etdim. Hər kəs çox gözəl başa düşür ki, bu günlərdə dövlətimizə qarşı törədilmiş bu terrorda hansı məqsəd güdülür. Kimin zərrə qədər vətənə, millətə, dövlətə, cənab prezidentə sevgisi varsa, gəlsin bu terroru törədənlərin cəzalarının verilməsi üçün öz xidmətlərini göstərsin. Yoxsa bunun ona, onun bunun söz deməyi, günahlandırmağı bizə yaraşmaz. Bir gənc olaraq özümə sığışdırmaram ki, durum kiməsə söz deyim. Tərbiyə, əxlaqım çərçivəsində münasibətimi bildirmişəm ki, xahiş edirəm Elmar Vəliyevin xidmətlərinə kölgə salmayın. Ən azından Gəncəyə gəlin, əhali ilə söhbət edin, o zaman vəziyyəti daha aydın başa düşərsiniz. Üzvü olduğumuz parlament Elmar müəllimlə bağlı məsələdə iki hissəyə bölünməyib. Bir-iki nəfərdən başqa heç bir deputat başqa mövqedə deyil. Açıqlamalara hər kəs baxsa bunu daha aydın görər. Dövləti, milləti sevən deputatlar bir mövqedən çıxış edirlər, yəni cənab prezidentin tərəfindədirlər, terroru lənətləyirlər. Bir-iki nəfərə görə parlamentin iki hissəyə bölündüyünü demək düzgün deyil".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

## Bakı-Quba yolunda nəqliyyatın hərəkəti qısa müddətlik məhdudlaşdırılacaq

**Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 6-18-ci kilometrlik hissəsinin yenidən qurulması ilə bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən təmir-tikinti işləri davam etdirilir.**



Agentlikdən "APA-Economics"ə verilən məlumata görə, hazırda yolun "Xırdalan dairəsi"ndən Beynəlxalq Avtovağzal kompleksinin qarşısınadək olan hissəsində işlər davam etdirilir.

Sözügedən istiqamətdə gündüz saatlarında hərəkət intensivliyi nəzərə alınaraq təmir-tikinti işləri gecə saatlarında aparılır. Bu məqsədlə gecədən səhər saatlarınadək işlərin aparıldığı ərazilər üzrə hərəkət qısa müddətlik hissə-hissə və qismən məhdudlaşdırılır.

Sıxlığın yaranmaması üçün sürücülərdən öncədən hərəkət istiqamətlərinə uyğun olaraq alternativ yollardan istifadə etmələri tövsiyə olunur.

"Yaranan müvəqqəti narahatlığa görə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi vətəndaşlardan üzr istəyir və aparılan işlərə anlayışla yanaşmalarını xahiş edir", - deyə məlumatda vurğulanıb.

## Qubada istirahət mərkəzində faciə - 1 ölü, iki yaralı

**Quba rayonunda bədbəxt hadisə baş verib. APA-nın şimal bürosunun verdiyi məlumata görə, Qubadakı hotellərdən birində kanatda baş verən qəza nəticəsində hotelin əməkdaşı, Qubanın Amsar kənd sakini 1992-ci il təvəllüdlü İsayev Rüzgar Mürvət oğlu ölüb.**

Quba rayon sakinləri, 1958-ci il təvəllüdlü Həsənov Rafiq Əziz oğlu və 1985-ci il təvəllüdlü Əliməmmədov Ruhid Mehman oğlu xəsarət alaraq Quba Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.

Fövqəladə Hallar Nazirliyi Qubada hoteldə baş verən bədbəxt hadisə barədə məlumat yayıb.

FHN-in mətbuat xidmətindən APA-ya daxil olan məlumatda bildirilir: "Kütləvi informasiya vasitələrində Quba rayonunda "Quba Palace Hotel"də kanat yolunun qırılması nəticəsində kanatda olanların ölməsi və xəsarət alması barədə xəbərlər yayılıb. İlkin araşdırmalar zamanı müəyyən edilib ki, Rusiya Federasiyasının "SCADA" şirkəti tərəfindən kanatda aparılan təmir işləri ilə bağlı kanat yolu 20.06.2018-ci il tarixindən istifadədə olmayıb".

Qeyd olunub ki, hadisə yerdə, təmir işləri aparılan zaman baş verib. Nəticədə təmir işlərinə cəlb edilmiş 1 nəfər ölüb, 2 nəfər xəsarət alıb.



## Gürcüstanda Azərbaycan dilli məktəbin tikintisinə başlanılıb

**Gürcüstanın Marneuli rayonunda 1 saylı Azərbaycan dilli ictimai məktəbin inşasına start verilib.**

APA-nın yerli bürosunun məlumatına görə, Marneuli rayon başçısı səlahiyyətlərini icra edən Zaur Tabatadze, Gürcüstan parlamentinin deputatı Ruslan Hacıyev və digər rəsmi şəxslər məktəbin tikinti prosesi və layihəsi ilə tanış olublar.

196 şagird üçün nəzərdə tutulmuş məktəbin inşasının 2019-cu ilin aprel ayında başa çatacağı nəzərdə tutulub. Tikinti işlərinə dövlət büdcəsindən 1 514 760 lari vəsait ayrılıb.

Qeyd edək ki, Marneulidə 1 saylı Azərbaycan dilli məktəbin binası 2016-cı ilin aprelində yararsız olduğundan sökülüb. Məktəbin müəllim və şagirdləri rayonunun 8 saylı məktəbinə köçürülüb.

YENİ MÜSAVAT
N 147 (7036) 10 iyul 2018

# İcra hakimiyyətlərini "ASAN Xidmət" modelinə keçirmək təklifi

## Politoloq: "Kompüter idarəçiliyi indi Azərbaycan üçün daha sərfəlidir"

**Gəncənin icra başçısı Elmar Vəliyevin güllələnməsindən sonra ictimaiyyətdə yenidən icra başçılarının xalqla, vətəndaşla davranışı məsələsi gündəmə gəldi. Doğrudur, Elmar Vəliyevin vurulmasının arxasında üçüncü qüvvələrin olduğu qeyd edilir. Ancaq bununla yanaşı, sosial şəbəkələrdə gəncəlilər Vəliyevin nöqsanlı fəaliyyəti barəsində də çoxsaylı statuslar yazırlar.**

Azərbaycanda hazırkı vəziyyətdə demək olar ki, icra başçıları xalqla dövlətin sərhədində yerləşirlər. Yəni hər hansı bir icra başçısının bölgədəki qeyri-etik hərəkəti, vətəndaşı, sahibkarı təhqir edən, incidən davranışı xalqda birbaşa olaraq dövlətə qarşı aqressiya yaradır. Bunu nəzərə alsaq, demək olar ki, hazırda bəzi icra başçılarının özbaşına fəaliyyətləri dövlətimiz üçün təhlükə yarada bilər.

Son aylar hökumət kabinetində qeydə alınan dəyişikliklər insanlarda yerli icra hakimiyyəti başçıları korpusunda da yeniləşmə olacağına dair inamın yaranmasına səbəb olub. Hökumətin tərkibində ciddi kadr islahatları həyata keçirilib, dəyişikliklər edilib. Xüsusilə də ötən illərdə yaradılan "ASAN Xidmət" modeli insanlar tərəfindən də müsbət qarşılanıb. Bəs icra hakimiyyətlərinin necə, "ASAN model"ə keçirilməsi mümkündürmü?



Mübariz Əhmədoğlu

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu bildirib ki, gerçəkdən də bəzi icra başçılarının hərəkəti dövlətimiz üçün ciddi təhlükə yarada bilər:** "Əvvəla, arzu edirəm ki, prezidentin bəlli müşavirədə məmurların ünvanına səsləndirdiyi tənqidi fikirlər son tənqidlər olsun. Yəni Azərbaycanda elə vəziyyətdir ki, artıq o səviyyədə olan məmurların qüsurları ciddi faciəyə səbəb ola bilər. Əgər istəyiriksə ki, icra başçılarının, məmurların fəaliyyəti yüksək səviyyədə olsun, bunun üçün Azərbaycanda elə də böyük iş görməyə ehtiyac yoxdur. Bütün bu məsələləri yoluna qoymağın sadə həlli var. Heç bir icra başçısı hansısa rayonda qapını sındırıb, icra hakimiyyətini zəbt etməyib. Bunun yolları var və prezidentə elə adamların namizədliyi gedən yerdə hansısa yol qırılmalıdır. Elə orijinal adamları tapıb həmin vəzifəyə qoyublar ki, adam təəccüblənir. Təəccüblənir ki, məmurlarımız gör nə qədər əziyyət çəkib, belə orijinal, nüsxə adamı tapıb icra başçısı qoyublar. Azərbaycan xalqı prezidenti dəstəkləyir və bunu ölkə zülmətə qərq olanda da gördük. İşıqlar sönəndə sakitlik heç də əhalinin təbiəti və digər məsələlərlə bağlı deyil, prezidentin siyasətinə dəstəklə əlaqəli idi. Ancaq hər gün problem yaranarsa, vəziyyət dəyişə bilər. Elmar Vəliyevi düşünürəm ki, radikal düşüncə daşıyıcıları vurublar. Buna zərrə qədər şübhəm yoxdur. Ancaq bir məsələ də var ki, yəqin bu qüvvələr hərəkətlərini əsaslandırıb deyirlər ki, Vəliyevin filan yerlərdə nöqsanı olub. İcra başçısı qoyulan zaman elə adamlar seçilməlidir ki, onun ilk növbədə şəxsiyyəti və fəaliyyəti mümkün qədər az qüsur yaratsın. Çünki başımızın üstündə qonşu dövlət var və istənilən qüsurdan istifadə edirlər. Hər yerdə o adamları gözləmək mümkündür ki, onlar vadar etsinlər ki, rayon rəhbərləri səhvə yol versin. Ancaq onu da deyim ki, bizim rayon rəhbərlərinin də əksəriyyəti elə səhv etmək üçün hazır vəziyyətdə dayanıblar".

**Politoloq qeyd edib ki, rayonların idarə edilməsində ciddi islahatlara ehtiyac var:** "Rayonların "ASAN Xidmət" modeli əsasında idarə edilməsi çox mümkün olan bir işdir. Buna elektron hökumət desək, daha doğru olar. MDB məkanında ilk dəfə elektron hökumət Azərbaycanda qurulub. Ölkəmizdə tam təkmil formada elektron hökumət var və 10-12 ildir ki, fəaliyyətdədir. Azərbaycanın istənilən kəndində baş verən hadisə barəsində 10 dəqiqə sonra Prezident Administrasiyasının ərazi üzrə müvafiq şöbəsində məlumat olur. Bundan 10 dəqiqə sonra administrasiyanın rəhbəri, daha sonra isə prezident məlumat alır. Elektron hökumət sistemi İlham Əliyevin Azərbaycanda qurduğu ilk sistemlərdən biridir. Sadəcə olaraq, bu barədə geniş məlumat verilmir. Hər bir kənddə operator məlumatları yığıb mərkəzə göndərsə, bu, daha yaxşı idarəçilik olar. Kompüterin qardaşı, bacısı yoxdur ki, rüşvətxorluq, qohumbazlıq edə. Ona görə də kompüter idarəçiliyi indi Azərbaycan üçün daha sərfəlidir. Onsuz da icra başçılarının elə də böyük səlahiyyətləri yoxdur. Onların da işi məlumatları toplayıb, yuxarı ötürməkdir. Yuxarının tapşırığı olmadan icra başçısı qərar qəbul edə bilməz. Bir-iki kiçik məsələ var ki, onların səlahiyyətlərində yalnız budur. İndi bir-iki kiçik səlahiyyətdən ötrü əksər icra başçıları ölkə prezidenti, dövlət üçün bu qədər problem yaradırsa, bu sistemin olmasındansa, olmaması yaxşıdır. Yaxud da seçki sisteminə keçmək lazımdır və hər rayon da özünə müvafiq bildiyi şəxsi icra başçısı seçməlidir. İcra başçısı da bilər ki, adamlardan asılıdır. Bu gün hansısa biznesmendən pul alacaqsa, qonşular biləcək. Bu qaydada ictimai nəzarət yaratmaq lazımdır. İcra başçılarının çox ciddi islahatlara ehtiyacı var. Bu adamların böyük əksəriyyəti qaldıqca, ölkə üçün problem yaradacaqlar. İnanın ki, bu dəqiqə elə rayonlarımız var ki, orada yaranan problem zəncirvari hala çevrilib, ölkəyə böyük problem gətirə bilər".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Ölkəni silkələyən iki hadisənin bağlantısı ola bilərmi?

## İlham İsmayıl: "Biri qəza, digəri qəsddir…"

**Azərbaycanda iyulun 3-4-də baş verən iki hadisənin bir-biri ilə bağlılığı ola bilər. Söhbət enerji təchizatı sistemindəki qəza və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı sui-qəsddən gedir.**

Hadisələr baş verəndən bəri sosial şəbəkələrdə irəli sürülən bu versiyanı "Real TV"-nin rəhbəri Mirşahin Ağayev dilə gətirib. O bildirib ki, E.Vəliyevə atəş açan Yunis Səfərov hər iki hadisənin icraçısı ola bilər: "Günlərin bir günü məlum olsa ki, Yunis Səfərov terror cəhdindən az əvvəl bulanıq Mingəçevir dənizində balıq tuturmuş, buna qətiyyən təəccüblənmərəm. Çünki əvvəla, Mingəçevir Gəncədən məsafə etibarilə çox uzaqda deyil. Terror texnologiyası və terrorçu təfəkkürü isə diqqəti yayındırmaq məqsədilə eyni gündə bir neçə aktın həyata keçirilməsini istisna etmir, bir sıra hallarda isə hətta zərurətə çevirir. Mən bu ehtimalı istisna etmirəm. Bəli, Mingəçevir İstilik Elektrik Stansiyasında texniki vəziyyət yarıtmazdır, istehsalat mühiti əlverişsizdir. Amma burada olduğum müddətdə anladım ki, bu çox böyük, strateji sahə, nəhəng işıq tarlamız ən yaxşı və ən etibarlı mühafizə edilmir. Və bu etibarsız avadanlıqlar kənar müdaxilə ilə də partlaya bilərdilər".

M.Ağayev qeyd edir ki, Y.Səfərov Suriyada döyüş təlimi keçibsə, "ən primitiv partlayıcı qurğuların hazırlanma üsullarına da, onların kənardan işə salınması vərdişlərinə də yiyələnə bilərdi".



İlham İsmayıl

**Mingəçevir İES-dəki qəza ilə Gəncənin icra başçısına qəsd arasında bağlantı ola bilərmi? Enerji qəzasının da Y.Səfərov və onunla birlikdə hərəkət etdikləri bildirilən şəxslər tərəfindən törədilməsi versiyası nə qədər real ola bilər?**

**Milli təhlükəsizlik xidməti zabiti İlham İsmayıl hesab edir ki, bu iki hadisə arasında heç bir əlaqə yoxdur:** "Əlaqə yalnız psixoloji baxımdan ola bilər. Yəni ola bilər ki, Yunis Səfərov işıqsızlıqdan, istilikdən gərginlik keçirərək çoxdan planlaşdırdığı işi məhz həmin gün icra etmək qərarına gəlmiş olar. Yunis Səfərov Allah deyil ki, havaları o qədər istiləşdirəydi, köhnəlmiş avadanlıqlar da bu istidə gərginliyə dözməyib yanaydı".

**İ.İsmayıla görə, Gəncədə baş verən sui-qəsd, Mingəçevirdə baş verən isə birmənalı şəkildə qəzadır:** "Mingəçevir İstilik Elektrik Stansiyasında baş verən hadisənin təxribatla heç bir əlaqəsi yoxdur. O stansiyadakı avadanlıqların istismar müddəti çoxdan bitib. Onların təmiri, sazlanması üçün ayrılan vəsaitlər isə korrupsiya qurbanı olub, mənimsənilib. Buna görə də enerjiyə tələbat və havanın temperaturu yüksələn kimi onlar sıradan çıxdılar. O stansiya güclü mühafizə olunan obyektdir, Yunis Səfərov quş deyil ki, görünmədən uçub ora daxil olub, nəhəng avadanlıqları sıradan çıxartsın və görünmədən də oradan uzaqlaşsın. Belə şeylər fantastik filmlərdə olur".

**Mütəxəssis deyir ki, hadisələrin davamının gəlməməsi də enerji təchizatı sistemində baş verənlərin təxribat olmadığını göstərir:** "Təxribatı törədirlər, ardınca da müəyyən hadisələr olur, tutalım ki, iğtişaşlar, etirazlar baş verir. Amma elektrik qəzaları olan günlərdə və ondan sonra heç bir belə hadisə olmadı. Hər nə qədər əhali təşvişə düşsə, işıqsızlıqdan, susuzluqdan qəzəblənsə belə, heç bir hadisə baş vermədi. Əgər təxribat olsaydı, mütləq davamı olacaq hadisələr baş verməliydi. Bir sözlə, bu iki hadisənin bir-biri ilə heç bir bağlantısı, əlaqəsi yoxdur".

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 147 (7036) 10 iyul 2018

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı törədilən terror aktından 1 həftə ötür. Bu müddət ərzində ortaya xeyli ilginc məlumatlar çıxıb. Olaydan sonrakı ilk günlərdə Yunis Səfərovun başçıya şəxsi motivlə hücum etməsi fikri daha çox yayılmışdı.**




# Gəncə və Mingəçevir işi böyüyür - həbslər başladı, bəzi saytlara giriş bağlandı

## Elmar Vəliyevə sui-qəsd üzrə 12 nəfər saxlandı; respublika ərazisində elektrik enerjisinin kəsilməsi və Gəncə ŞİH başçısı Elmar Vəliyevə qarşı sui-qəsdlə əlaqədar sosial şəbəkələrdə qeyri-qanuni çağırışlar etdiyinə görə daha 20 nəfər cəzalandırıldı

İyulun 3-də hüquq mühafizə orqanları - DİN, Baş Prokurorluq və DTX birgə açıqlama yayaraq Gəncənin icra başçısı Elmar Vəliyev və onun mühafizəçisi Qasım Aşbazova qarşı törədilmiş hadisənin terror aktı olduğunu elan etdi.

Amma ortada bir maraqlı məqam da var: Elmar Vəliyevin qardaşı, Azərbaycan baş prokurorunun müavini, ölkənin hərbi prokuroru olan Xanlar Vəliyev bildirdi ki, Yunis Vəliyevin anası ermənidir, Rusiya xüsusi xidmət orqanlarının əməkdaşıdır.

Xanlar Vəliyev kifayət qədər yüksək post tutan vəzifə sahibidir, təcrübəli istintaqçılardan hesab edilir. İllərdir ki, hərbi prokuror postundadır. Onun açıqlaması bu səbəbdən təsadüfi hesab oluna bilməz.

Yunis Səfərovun doğum şəhadətnaməsində anası Leylaxanım Hüseyn qızı və atası Rafiq Yunis oğlunun milliyyətləri qrafasında "azərbaycanlı" sözləri yazılması da şübhələri tam aradan qaldırmır. Hər halda, Yunisin özü, ata-anası uzun illərdir ki, Rusiyada yaşayırlar. Bu səbəbdən Xanlar Vəliyevin səsləndirdiyi "Rusiya izi" maraq doğurmaya bilmir...

***

Bu arada sosial şəbəkələr üzərindən Yunis Səfərovun həbsindən sonra ölümcül döyülməsi ilə bağlı foto və məlumatlar da tirajlanmışdı. Həmin məlumatda vurğulanırdı ki, Yunis Səfərovu polis əməkdaşları döyməyib. İddia olunur ki, onu Xanlar Vəliyevin, Elmar Vəliyevin və digər qardaş oğlanlarından ibarət 11 nəfərlik Vəliyevlər qruplaşması döyüb...

Amma bu iddiaların nə dərəcədə doğru olması bilinmir.

**Y.Səfərovun vəkil Elman Ağayev isə big.az-a açıqlama verərək bildirib ki, müvəkkilinin döyülməsi, ölməsi ilə bağlı iddialar əsassızdır:** "İstintaq getdiyi üçün əlavə məlumatlar verə bilmərəm. Tək onu deyə bilərəm ki, Yunis sağ-salamatdır. Mətbuatda döyülməsi məsələsi çox şişirdilib. Mən iyulun 4-ü onu gördə döyülmüş insan kimi hərəkət etmirdi. Mənimlə normal danışırdı. Üzündəki xəsarəti soruşanda bildirdi ki, polislər onu yaxalamaq istəyərkən olub. Mən onun bütün bədəninə baxmışam. Ondan əlavə heç bir xəsarəti yoxdur. İyulun 5-də də görmüşəm. Hər dəfə onunla görüşəndə döyülüb-döyülməməsini soruşuram. Hətta bədəninə baxıram. Ailəsi ilə əlaqəm hələ ki olmayıb. Buna, düzü, vaxt da tapa bilmirəm. Ziyalı, hüquqşünas bir oğlandır. Savadlı bir gəncdir. Vəkil kimi olmasa da, qanunu biləndir".

**"Peşmandırmı?" sualına vəkil onu zamanı gələndə bunu Yunis Səfərovun özü bildirəcəyini vurğulayıb:** "Amma onun döyülməsi haqqında çıxan informasiyalar yalandır. Ən azından mən vəkiləm. İstəmərəm ki, müdafiə etdiyim şəxsə qarşı kimsə zor tətbiq etsin. Əgər belə bir şey olsa hər kəsə deyərəm. Hətta onu müdafiə etməkdən belə imtina edərəm. Yunis sağ-salamatdır. Dünən mənimlə birgə qarpız da yeyib, çay içib. Mənimlə rahat danışır. Bu hadisəni törədən şəxsdə təbii ki, müəyyən sıxıntı olacaq".

Bu arada hadisədən sonra ötən müddət ərzində Elmar Vəliyevin sağlıq durumu ilə bağlı da ziddiyyətli məlumatlar gəlməkdədir. Qanlı olaydan dərhal sonra başçının sağlıq durumuna təhlükə olmadığı xüsusi olaraq vurğulanırdı. Lakin ötən 7 gün ərzində Elmar Vəliyevin sağlıq durumunun yaxşı olmasını təsdiqləyən bir səs yazısı, videomüraciəti və ya xəstəxana otağındakı fotosu yayılmayıb. Ötən gün "Yeni Müsavat"ın "Gəncədə Elmar Vəliyevin vurulması" mövzusunda canlı yayımına qatılan deputat Fazil Mustafa deyib ki, terrora məruz qalan başçı müalicə üçün İsrailə aparılıb.

Bu xüsusda YAP Gəncə şəhər təşkilatının sədri, deputat Naqif Həmzəyev azvision.az-a açıqlama verib.

**Deputat "Elmar Vəliyevin səhhəti normaldır və müalicəsini davam etdirir", deyib. Bildirib ki, mütəmadi olaraq E.Vəliyevin səhhəti ilə maraqlanır:** "Hazırda müalicə davam edir. Elmar müəllim qısa müddətdə işə qayıdacaq"...

**İyulun 9-da isə Baş Prokurorluq Elmar Vəliyev mövzusunda təxribat xarakterli məlumatları yayan 4 saytın bağlanması, redaktorlara cinayət işi başlanması haqda rəsmi məlumat yayıb. "Yeni Müsavat"a daxil olan həmin rəsmi məlumatda deyilir:**

"2018-ci il iyulun 3-də Rusiya Federasiyası vətəndaşı Yunis Səfərovun Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə və polis əməkdaşı Qasım Aşbazova qarşı törətdiyi məqsədyönlü şəkildə əvvəlcədən planlaşdırılmış terror aktı ilə əlaqədar bəzi kütləvi informasiya vasitələrinin vəzifəli şəxsləri, həmçinin ayrı-ayrı şəxslər tərəfindən internet informasiya resursları vasitəsilə həqiqətə uyğun olmayan təxribat xarakterli məlumatlar yayılıb. Həmin məlumatlara ictimai rəyi çaşdırmaq, ictimai-siyasi sabitliyi pozmaq, terrorçuluğu dəstəkləyən, vətəndaşlar arasında dövlətin həyata keçirdiyi tədbirlərə inamsızlıq yaratmaq, cinayətkarlığa qarşı mübarizə sahəsində hüquq-mühafizə orqanları tərəfindən görülən işlərin üzərinə kölgə salmaq məqsədilə bilə-bilə yalan məlumatlar, eləcə də yayılması qanunla qadağan edilən informasiyalar daxil edərək terrorçuluğa və hakimiyyətin zorla ələ keçirilməsinə, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn açıq çağırışlar edilib. Belə ki, bəzi profillər vasitəsilə sosial şəbəkələrdə müxtəlif məzmunlu paylaşımlarda və ya şərhlərdə terrorçuluğa açıq çağırışlar edilməsi faktları üzrə Cinayət Məcəlləsinin 214-2-ci (terrorçuluğa açıq çağırışlar) maddəsi ilə cinayət işləri başlanmışdır. Bundan başqa, sosial şəbəkələrdə müxtəlif məzmunlu paylaşımlar etməklə insanları qanunsuz etiraz aksiyaları təşkil edərək hakimiyyətin zorla ələ keçirilməsinə və Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn açıq çağırışlar edilməsi faktı ilə bağlı isə Cinayət Məcəlləsinin 281.1-ci (dövlət əleyhinə yönələn açıq çağırışlar) maddəsi ilə cinayət işi başlanmışdır. Həmin cinayət işləri ibtidai istintaqın aparılması üçün Dövlət Təhlükəsizlik Xidmətinə göndərilmiş və hazırda təqsirli şəxslərin müəyyən edilib məsuliyyətə cəlb edilmələri üçün əməliyyat-istintaq tədbirləri davam etdirilir. Göstərilənlərlə yanaşı, "criminalaz.com" və "bastainfo.com" internet saytlarının internet informasiya resurslarına məlumatları yerləşdirməyə məsul olan vəzifəli şəxsləri ötən dövr ərzində "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin tələblərini pozduqlarına görə Baş Prokurorluq tərəfindən iki dəfə rəsmi xəbərdarlıq edilmələrinə baxmayaraq, həmin qanunun tələblərini qərəzli şəkildə yenidən pozaraq 03-06 iyul 2018-ci il tarixlərdə dərc edilmiş müxtəlif başlıqlı məqalələrdə ictimai rəyi çaşdırmaq, ictimai-siyasi sabitliyi pozmaq, vətəndaşlar arasında dövlətin həyata keçirdiyi tədbirlərə inamsızlıq yaratmaq məqsədi ilə bilə-bilə yalan məlumatlar, eləcə də yayılması qanunla qadağan edilən informasiyalar daxil edərək yayımlamışlar. Həmin faktlarla bağlı Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı, yəni vəzifəli şəxs tərəfindən informasiya resurslarına bilə-bilə yalan məlumatların daxil edilməsi) maddəsi ilə cinayət işi başlanmaqla ibtidai istintaqın aparılması Bakı şəhər prokurorluğuna tapşırılmışdır. Azərbaycan Respublikası Baş Prokurorluğunda aparılmış araşdırmalarla "topxeber.az" və "fia.az" internet saytlarının vəzifəli şəxsləri tərəfindən "Kütləvi informasiya vasitələri haqqında" Qanununun 10-cu maddəsinin tələblərinin kobud şəkildə pozulması, cəmiyyətdə çaşqınlıq yaranmasına səbəb olan, konkret faktlara əsaslanmayan, sensasiya xarakterli məlumatların məqsədli şəkildə yayılması müəyyən edilmişdir. Bununla əlaqədar, internet saytlarının rəhbərləri Baş Prokurorluğa dəvət edilərək, onlardan "Prokurorluq haqqında" Qanunun tələblərinə müvafiq olaraq rəhbəri olduqları internet saytlarında sensasiya naminə informasiyaların yayılmasına son qoyulması tələb edilməklə, gələcəkdə dövlətin rəsmi qurumlarının mətbuat xidmətləri ilə dəqiqləşdirmə aparmadan qanunazidd əməllərini davam etdirəcəkləri təqdirdə barələrində cinayət məsuliyyəti də daxil olmaqla qanunvericilikdə nəzərdə tutulmuş daha ciddi tədbirlər görüləcəkləri barədə rəsmi xəbərdarlıq edilmişlər. "Bastainfo.com", "criminalaz.com", "topxeber.az" və "fia.az" internet saytlarının internet informasiya ehtiyatına müraciətlərinin məhdudlaşdırılması və digər məhdudiyyətlərin tətbiqi üçün müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə müraciət edilmişdir.

Baş Prokurorluq tərəfindən bir daha kütləvi informasiya vasitələrinə, o cümlədən sosial şəbəkə istifadəçilərinə (facebook, twitter, instagram və s.) "Kütləvi informasiya vasitələri haqqında" Qanunun tələblərinə riayət etmələrinə dair xəbərdarlıq olunmaqla ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin pozulmasına, terrorçuluğu dəstəkləyən, əhali arasında vahimə yaratmaq məqsədilə dövlət və ictimai xadimlərin həyatına sui-qəsd etməklə terrorçuluğa açıq çağırışlar, vətəndaşlar arasında dövlətin həyata keçirdiyi tədbirlərə inamsızlıq yaratmaq, insanları konkret yeri və vaxtı göstərərək qanunsuz etiraz aksiyaları keçirməyə təhrik etməklə hakimiyyətin zorla ələ keçirilməsinə və Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn açıq çağırışlar və digər istənilən qanunazidd hərəkətlərin qarşısının alınması üçün respublikanın hüquq mühafizə orqanları tərəfindən monitorinq həyata keçirilməklə bu cür hərəkətlərə yol verən müvafiq şəxslər barəsində ən ciddi məsuliyyət tədbirlərinin görülməsi təmin ediləcək".

*(davamı səhifə 5-də)*

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 147 (7036) 10 iyul 2018



# Ərdoğandan Azərbaycana mühüm jest - andiçmədən sonra ilk səfərini Bakıya edir

## Qardaş ölkənin prezidenti növbəti dəfə dost-düşmənə mesajını verdi, Bakı və Ankaranın arasına girənlər məğlub olacaqlar; **eks-nazir Tofiq Zülfüqarov:** "Təbii ki, bu kimi səfərlər müsbət rəmzi məna daşıyır"

**İyunun 24-də növbəti dəfə Türkiyə prezidenti seçilən Rəcəb Tayyib Ərdoğan ənənəsinə sadiq qalaraq ilk xarici ölkə səfərini Azərbaycana edəcək. Bu gün o, Bakıya gələcək.**

Cənab Ərdoğanın həmin gün Şimali Kipr Türk Cümhuriyyətinə gedəcəyi də bildirilir.

"Türkiyə və Azərbaycan münasibətləri ən yüksək səviyyədədir və daha da inkişaf edəcək". "Trend"in məlumatına görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib.

Qeyd edək ki, R.T.Ərdoğanın andiçmə mərasimi iyulun 9-da keçirilib.

Türkiyə lideri Bakıdan NATO-nun sammitində iştirak etmək üçün Brüsselə yola düşəcək. Alyansa üzv ölkələrin dövlət və hökumət başçılarının sabah başlayacaq sammiti Ərdoğanın yeni beş illik prezidentlik dövründə qatıldığı ilk beynəlxalq tədbir olacaq.  NATO sammiti zamanı Ərdoğanın ABŞ prezidenti Donald Tramp, Fransa prezidenti Emmanuel Makron və Britaniya Baş naziri Tereza Meylə bir araya gələcəyi gözlənilir (ordu.az).

Qardaş ölkə prezidentinin ilk xarici səfərini Azərbaycana etməsi "Bir millət, iki dövlət" yanaşmasının ruhuna tam uyğun olmaqla yanaşı, qardaşlıq ənənələrinin uğurla davam etdirilməsi, dost-düşmənə verilən aydın mesajdır. Bununla da qardaş ölkənin lideri növbəti dəfə demək istəyir ki, Bakı və Ankaranın arasına girənlər, münasibətlərimizə xələl gətirməyə çalışanlar daim məğlub olacaqlar. Xüsusilə də Qarabağ torpaqlarının işğalı şəraitində, həmçinin Azərbaycanın Naxçıvan bölgəsində yönəlik Ermənistanın təhdidlərinin davam etməsi halında Bakı səfəri olduqca önəmlidir. Heç şübhəsiz ki, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi mövzusu Bakı səfərində müzakirə olunacaq. Eyni zamanda Suriya və İraqdan sıxışdırılan PKK-nın Qarabağa sığınması ətrafında da diskussiyaların aparılması mümkündür. Xatırladaq ki, baş nazir Binəli Yıldırım Bakıda olarkən Türkiyə və Azərbaycana yönəlik təhlükələrə qarşı tədbir görülməsini mümkün saymışdı.

"Prezident seçkilərindən sonra Azərbaycan və Türkiyənin dövlət başçısının ilk xaricə səfərini qardaş ölkəyə etməsi münasibətlərdə xoş və müsbət ənənədir. Bu, Azərbaycanla Türkiyənin nə qədər yaxın, müttəfiq, strateji tərəfdaş olduğunun göstəricisidir. Qarşılıqlı olaraq bu səfərləri həm də beynəlxalq ictimaiyyətə bir mesaj kimi qiymətləndirmək olar". Bu sözləri teleqraf.com-a açıqlamasında politoloq Vüqar Ziferoğlu Ərdoğanın prezident seçkilərindən sonra ilk rəsmi səfərini Azərbaycan və Şimali Kiprə etməsini şərh edərkən deyib. Onun sözlərinə görə, Azərbaycana gələn Türkiyə prezidenti Azərbaycan prezidenti İlham Əliyevlə hərbi sahədən tutmuş siyasi əməkdaşlığın müxtəlif parametrlərinədək ən müxtəlif istiqamətdə müzakirələr aparacaq.

**Vüqar Ziferoğlunun fikrincə, prezidentlərin görüşündə Yaxın Şərqdə baş verən proseslər ətrafında da müzakirələr aparıla bilər:** "Türkiyə Yaxın Şərqdə baş verənləri diqqətlə izləyir, Azərbaycan da öz növbəsində həmişə regionda baş verən hadisələrə həssaslıq nümayiş etdirir, İslam həmrəyliyi ilə bağlı çağırışlar edən bir ölkə kimi tanınır".

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Yeni Müsavat"a bildirdi ki, ilk növbədə R.T.Ərdoğanın ənənəvi olaraq seçiləndən sonra Azərbaycana gəlməsini xüsusi qeyd etmək lazımdır:** "Azərbaycan həm xarici, həm də daxili siyasətində çox önəmli yer tutan ölkədir. Daxili siyasətdən söhbət gedirsə, seçki platformasında Dağlıq Qarabağ probleminin həlli xüsusi olaraq qeyd olunub. Xarici siyasətinə gəldikdə, Ərdoğan və Prezident Administrasiyası bir neçə dəfə Qarabağ məsələsi barədə həm Vaşinqtonda, həm də Moskvada məsələ qaldırıb. Eyni zamanda Türkiyə və Azərbaycan arasında iqtisadi, humanitar, hərbi, təhlükəsizlik və s. sahələrdə geniş əməkdaşlıq var". **T.Zülfüqarov prezident Ərdoğanın Bakı səfərinin rəmzi məna daşıdığını da vurğuladı:** "Təbii ki, bu kimi səfərlər müsbət rəmzi məna daşıyır. O da istisna deyil ki, hər dəfə olduğu kimi, bu dəfə də konkret məsələlər müzakirə olunacaq".

**Politoloq R.T.Ərdoğanın Bakıdan Brüsselə səfər edəcəyinə toxunarkən bildirdi ki, sammitdə Qarabağ məsələsini qaldırıb-qaldırmayacağını dəqiq deyə bilməz:** "Amma Ermənistanın indiki siyasəti bir-birinə zidd məsələlərlə xarakterizə oluna bilər. Bir tərəfdən qərbmeyilli siyasət yürüdülür, eyni zamanda İrəvan Rusiyanın təhlükəsizlik çətirinin altında qalmaq istəyir.  Yeni xarici işlər naziri də bununla bağlı açıqlama verib. Mümkündür ki, Ermənistan tərəfindən NATO sammitində müəyyən məsələlər qaldırılsın. Çünki Ermənistan böyük nümayəndə heyəti ilə Brüsselə gedir. NATO dövlətlərininsə ən vacibi Türkiyədir. O mənada bu müzakirələrdə Türkiyə prezidentinin iştirakı mühüm əhəmiyyətə malikdir".

**Politoloq Arzu Nağıyev də "Yeni Müsavat"a açıqlamasında Türkiyə prezidentinin ilk səfərini Azərbaycana etməsinin artıq bir ənənəyə cevrildiyini xüsusi vurğuladı:** "Bu, eyni zamanda dostlara və düşmənlərə də mesajdır. Dostlar bunu ikitərəfli əməkdaşlıq, türk dünyasının birliyi kimi qəbul edir, düşmənlər isə bunu özləri üçün gələcəkdə təhdid kimi qələmə verirlər. Türkiyə və Azərbaycan bütün sahələrdə-siyasi, iqtisadi, hərbi və hətta mənəvi cəhətdən tərəfdaşdırlar və dövlət başçıları da bunu yüksək səviyyədə davam etdirilər. Zənnimcə, bu dövlətlərin tərəfdaş olması böyük iqtisadi layihələrin həyata keçirilməsində, regional və qlobal məsələlərin həllində mühüm rol oynayacaq, geosiyasi baxımdan Avropanın və Qərbin təhlükəsizliyinin qarşısının alınmasına töhfələr verəcək". **A.Nağıyev istisna etmir ki, bu əməkdaşlıq Dağlıq Qarabağ münaqişəsinin həlli üçün də mühüm əhəmiyyət kəsb edir:** "Cənab Ərdoğanın Azərbaycana səfərindən sonra NATO sammitində iştirakı da əhəmiyyətlidir. Türkiyə NATO-nun üzvüdür və heç bir hərbi blokda təmsil olunmayan və müstəqil siyasət yürüdən Azərbaycanla tərəfdaşdır. Buna görə də NATO sammitində regionun təhlükəsizliyinə təhdid olan və Azərbaycanla bağlı mühüm məsələlərin də Türkiyə tərəfindən qaldırılması mümkündür. Bu baxımdan gələcək perspektivlər də müsbət və dinamik inkişaf edəcəkdir".

**Qeyd edək ki, Ermənistan mediası Türkiyə prezidentinin NATO-da növbəti dəfə Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsini qaldıracağından narahatdır... Azərbaycan və Türkiyənin NATO sammitində vahid mövqedən çıxış edəcəyi İrəvanda narahatlıq doğurub.**

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Gəncə və Mingəçevir işi böyüyür - həbslər başladı, bəzi saytlara giriş bağlandı

## Elmar Vəliyevə sui-qəsd üzrə 12 nəfər saxlandı; respublika ərazisində elektrik enerjisinin kəsilməsi və Gəncə ŞİH başçısı Elmar Vəliyevə qarşı sui-qəsdlə əlaqədar sosial şəbəkələrdə qeyri-qanuni çağırışlar etdiyinə görə daha 20 nəfər cəzalandırıldı




*(əvvəli səhifə 4-də)*

**Bu məlumatın ardınca DİN mətbuat xidmətindən musavat.com saytına daxil olan açıqlamaya görə, Elmar Vəliyevə sui-qəsdə görə daha 11 nəfər (Yunis Səfərovla 12) həbs olunub.**

Musavat.com xəbər verir ki, onlar aşağıdakılardır:

1. Səfərov Yunis Rafiq oğlu - 1983, Gəncə şəhəri
2. Zeynalov Firudin Etibar oğlu - 1982-ci il Tərtər rayonu
3. Zalov Cəfər Mürsəl oğlu - 1977, Gəncə
4. Əzizov Mahir Əziz oğlu - 1986, Yevlax şəhəri
5. Əliyev Muraz Mətləb oğlu, 1989, Gəncə
6. Abdullayev Hamlet Ramiz oğlu, 1978, Gəncə
7. Ələkbərov Fikrət Balaqardaş oğlu, 1979, Bakı şəhəri
8. Həsənov Rauf Rövşən oğlu, 1983 Gəncə
9. Paşayev Ramil Famil oğlu, 1980, Gəncə
10. Salahov Ceyhun İsrail oğlu, 1972-ci il, Gəncə
11. Mustafayev Rasim Hafiz oğlu, 1980, Gəncə
12. Zahidov Elmir Savadxan oğlu, 1996-cı il, Neftçala rayonu

Qəzetimizin çap versiyası nəşriyyata gedəndə onların hansı səbəbdən saxlanmaları ilə bağlı rəsmi açıqlama yayılmamışdı.

**Bundan başqa, respublika ərazisində elektrik enerjisinin kəsilməsi və Elmar Vəliyevə qarşı sui-qəsdlə əlaqədar sosial şəbəkələrdə qeyri-qanuni çağırışlar etdiklərinə görə hüquq-mühafizə orqanları tərəfindən daha 20 nəfər cəzalandırılıb.**

**Musavat.com-un əldə etdiyi məlumata görə, saxlanılmış və xəbərdarlıq edilmiş şəxslər aşağıdakılardır:**

**1.** Qurbanov Rabil Səlvər oğlu, 29.05.81, Bakı şəhər sakini, 30 gün müddətinə;
**2.** Ferazi Yaşar İbrahim oğlu, 17.06.1959, Xırdalan şəhər sakini, 30 gün müddətinə;
**3.** Əliyev Elxan Rüstəm oğlu, 05.10.1982, Tovuz rayon Aşağı Ayıblı kəndi, 30 gün müddətinə;
**4.** Mehdiyev Aqil Səlamət oğlu, 06.10.1985, Salyan rayon sakini, 30 gün müddətinə;
**5.** Rəhimov Əli Şahbala oğlu, 05.03.1992, Bakı şəhər sakini, 30 gün müddətinə;
**6.** Camalov Rəşad Şamil oğlu, 14.09.1990, Tərtər rayon sakini, 30 gün müddətinə;
**7.** Şıxəliyev Elsevən Akif oğlu, 05.07.1991, Lənkəran rayonu, Cəgiran kəndi sakini, 30 gün müddətinə;
**8.** Quliyev İlqar Humay oğlu, 27.06.1980, Sumqayıt şəhər sakini, 30 gün müddətinə;
**9.** Sadıqov Əfqan Hətəmxan oğlu, 06.12.1976, Cəlilabad şəhər sakini, 30 gün müddətinə;
**10.** Əliyev Rüfət Yaqub oğlu, 31.05.1986, Sumqayıt şəhər sakini, 30 gün müddətinə;
**11.** Şirinov İlknur Adil oğlu, 18.07.1991, Balakən şəhər sakini, 25 gün müddətinə;
**12.** Kərimov Sədi Hüseyn oğlu, 17.02.1983, Bərdə rayonu, Qəhrəmanlı kəndi, sakini, 20 gün müddətinə;
**13.** Hüseynli Babək Hümbət oğlu, 22.08.1992, Xırdalan şəhər sakini, 10 gün müddətinə;
**14.** Həşimov Afiq Mirzəxan oğlu, 10.02.1981, Neftçala şəhər sakini, 10 gün müddətinə;
**15.** Səfərsoy Rza Əli oğlu, 06.05.1976, Səlyan rayonu Yenikənd kənd sakini, barəsində cinayət işi qaldırılıb, axtarışdadır;
**16.** Qasımov Səbuhi Hafiz oğlu, 26.06.1996, Bakı şəhər sakini, barəsində cinayət işi qaldırılıb, axtarışdadır;
**17.** Balayev Mahir Adəm oğlu, 18.03.1981, Ağsu rayonu Hacıqədirli kənd sakini, həbsdədir;
**18.** Həsənov Bəhrəm Hüseyn oğlu, 17.09.1987, Ağdam rayonu Kəngərli kənd sakini, incibati qaydada cərimə olunub;
**19.** Rəhimov Orxan Oruc oğlu, 07.03.1993, Bərdə rayonu, Otuzikilər kən sakini, incibati qaydada cərimə olunub;
**20.** Bayramlı Səməd Elmin oğlu, 14.07.1998, Qəbələ rayonu Mıxlıqovaq kənd sakini, xəbərdarlıq edildikdən sonra buraxılıb.

**Görünən budur ki, hakimiyyət orqanları qətiyyətli istintaq və profilaktik tədbirlərə başlayıblar.**

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 147 (7036) 10 iyul 2018

# Deputatlar ölüm hökmünü bərpa təklifindən danışdılar

**Azərbaycanda ölüm hökmünün bərpası məsələsi yenidən gündəmə gəlib. Son olaraq, tanınmış hüquqşünas Əkrəm Həsənov belə bir təşəbbüslə çıxış edib. O, uşaqlara və qadınlara qarşı törədilmiş zorakılıq halları və xüsusi qəddarlıqla törədilmiş cinayətlərin ölümlə cəzalandırılmasının vacibliyini önə çəkib.**







## Fərəc Quliyev: "Ölüm hökmünün bərpasının tərəfdarıyam"
## Fəzail Ağamalı: "Başqasının ömrünə qəsd edən biri nədən yaşamalıdır?"
## Bəxtiyar Sadıqov: "Allahın verdiyi canı yalnız Allah ala bilər"

Hüquqşünas hesab edir ki, ölüm cəzası insanları bu tipli cinayətlər törətməkdən çəkindirir.

Qeyd edək ki, belə təkliflər ölkəmizdə ölüm hökmünün ləğv olunduğu son 20 ildə dəfələrlə səsləndirilib. Ən müxtəlif sahələrin tanınmış nümayəndələri bu məsələni gündəmə gətiriblər.

Aylar öncə hüquq elmləri doktoru, professor İlham Rəhimov "Yeni Müsavat"a müsahibəsində ölüm hökmündən danışmış, bu hökmün bərpasını istisna etməmişdi.

**Sitat:** "Azərbaycanda ölüm hökmünün ləğvi siyasi qərar olub. Avropa strukturları bunu ölkə qarşısında tələb kimi qoymuşdular. İsveçrə də ölüm hökmünü ləğv edib. Ona görə ki, onlarda ağır cinayətlər faktiki olaraq baş vermir - statistikaya baxsaq, sayı ildə bir əlin barmaqlarından da azdır. Azərbaycanda isə ildə 200-dən çox qəsdən adamöldürmə baş verir. Özü də ildən-ilə bu cinayətin qurbanlarının sayı artır. Ancaq statistikada qurbanların sayından asılı olmayaq hər fakt bir cinayət hadisəsi kimi qeydə alınır. Yeni statistikada qurbanlarının sayı 7, ya da 1 olan ağır cinayətlər arasında fərq yoxdur. Əgər qəsdən adamöldürmə cinayətlərinin sayı ümumi cinayətlərin sayında tək-tək rast gəlinsəydi, o zaman ölüm hökmünün geri qaytarılması gündəmə gətirilməzdi. Təəssüf ki, cinayətlərin sayı çoxalır və cəmiyyət buna qarşı tədbir görməlidir. Dediyim kimi, siyasi qərar olduğu üçün Azərbaycan onun nəticələrini dəqiq hesablaya bilməyib. Ona görə də ölüm hökmünün bərpası istisna deyil. Hər şeyi statistika müəyyən edəcək - əgər cinayətlərin xarakteri mənfiyə daha çox meyllənsə, ölüm hökmü bərpa ediləcək. Keçmişdə ağır cinayətlərdə, xüsusən qəsdən adamöldürmədə qurbanların sayı çox olmurdu. Ancaq indi eşidirik ki, kimsə bütöv bir ailəni amansızlıqla qətlə yetirib. Fikir vermisinizsə, indi canilər qurbanlarının başını kəsir-əvvəllər belə faktların sayı mində bir idi. Bu, çox vahiməlidir. Cinayətlər çox qəddar xarakter alıb".

**Deputatların hazırda gündəmdə olan bu məsələ ilə bağlı mövqelərini öyrəndik.**

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev ölüm hökmünün bərpasını istəyir:** "İnanmıram ki, qanuna bu dəyişiklik edilsin və ölüm hökmü bərpa olunsun. Subyektiv fikrimə görə, zorakılıq və digər bu kimi ağır cinayətlərə görə şəxsən mən ölüm hökmünün bərpasının tərəfdarıyam. Amma bunun müzakirəyə çıxarılacağına inanmıram. Ölüm hökmünə qayıdış olmayacaq. Bu, sadəcə, istək olaraq qalacaq. Onunla razılaşıram ki, bəzən beynəlxalq konvensiyanın bizdən tələb etdiklərini əsas götürürük. Azərbaycanın özünün yaşam tərzi var. Bu tərzə uyğun qanunların ortada olması lazımdır. Parlamentdə bu məsələ indiyə qədər qaldırılıb. Azərbaycanın imicinə zərər gələr deyə, eləcə də geriyə qayıdış ola bilər düşüncəsi ilə bəzən hökmün bərpası vacib hesab olunmur. Bu olarsa, bunun Avropa dəyərlərindən uzaqlaşma kimi qəbul olunacağını düşünənlər də var. Bu kimi səbəblərdən hökmün bərpa olunmayacağını düşünürəm. Ölüm hökmü verildə ayaqüstü qərar olmur. Məsələ dərindən araşdırılır. Çünki bu qərarın məsuliyyəti çox ağır olur. Hökm veriləndə dərhal icra olunmur. Apelyasiya və Ali Məhkəmə kimi mərhələlər də olur. Son zamanlar artan zorakılıq və digər bu kimi halların qarşısının alınması üçün ölüm hökmünün bərpası çox vacibdir".

**Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı bu məsələnin kifayət qədər mübahisəli olduğunu söylədi:** "Cinayətlərin qarşısını almaq üçün daha sərt tədbirlərin görülməsi şərtdir. Dünyanın bir çox ölkələrində sərt cəzavermə üsulları var. İnkişaf etmiş bəzi ölkələrdə hələ də ölüm hökmü qalır. 20 il öncə ulu öndərimiz Heydər Əliyev mərhəmət və humanizm mövqeyindən çıxış edərək ölüm cəzasını ləğv etdi. Ömürlük həbs cəzası hazırda tətbiq olunur. Amma bəzi hallarda bu cəza ağır cinayətlərin qarşısını ala bilmir. Ona görə də daha ağır xarakter daşıyan cinayətlərə yol verənlərin ölüm hökmü ilə cəzalandırılmalarını mən də istəyirəm. Elə cinayətlər törədilir ki, Cinayət Məcəlləsinin heç bir maddəsi buna uyğun gəlmir. Ömürlük cəza bir tərəfdən humanist xarakter daşısa da, cəmiyyətdən cinayətkarları təmizləsə də, belə bir sual çıxır ki, başqasının ömrünə qəsd edən biri nədən yaşamalıdır? Elə cinayətlər var ki, onun qarşısını yalnız ölüm hökmü ala bilər".

**Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa ölüm hökmünün bərpası ilə bağlı bir sıra təkliflər verdiyini bildirdi:** "Bununla bağlı debatlarda, müsahibələrdə, parlamentin iclaslarında təkliflər vermişəm. Avropa Şurasının üzvü olduğumuz üçün bu hökmü yenidən tətbiq etməyimiz bir qədər çətindir. Cinsi zorakılığa, azyaşlı uşaqların öldürülməsinə görə bu cəzanın bərpasının tərəfdarıyam. Sadəcə, Avropa Şurasına üzv olduqdan sonra üzərimizə götürdüyümüz öhdəliklərə görə bunu bərpa etmək mümkün deyil. Amma gələcəkdə bu mövzu ətrafında düşünmək olar. İndiki şəraitdə real deyil".

**"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov hesab edir ki, dövlətə xəyanət edənlərə, hərbi sirri satanlara qarşı ölüm hökmünün verilməsi vacibdir:** "Açığı, inanmıram ki, Azərbaycan geriyə addım atsın, ölüm hökmünü bərpa etsin. Əslində heç özüm də bunun tərəfdarı deyiləm. Çünki elə insanlar, əməllər var ki, ölüm onlar üçün yüngül cəzadır. Bu yolla canlarını qurtarırlar. Ömürlük həbsxana daha ağır cəzadır. Elə insanlara ömürlük cəza verilsin, amma heç zaman bağışlanmamaları şərti ilə. Ölüm hökmünün bərpası ilə bağlı zaman-zaman müzakirələrin getməsi normaldır. Türkiyədə də bu müzakirələr gedir. Əvvəl ölüm hökmünün bərpasının tərəfdarı olan prezident Rəcəb Tayyib Ərdoğan sonradan dedi ki, bunun bərpası o qədər də asan məsələ deyil. Yəqin dünya bu barədə düşünür. İnanıram ki, yaxın gələcəkdə belə ağır cinayətlər törətmiş şəxslərə qarşı ölüm hökmündən daha sərt cəza yolları tapılacaq. Nəticədə insanlar bu cür cinayətlər törətməkdən çəkinəcəklər. Bütövlükdə mən də belə hesab edirəm ki, Allahın verdiyi canı yalnız Allah ala bilər. Ölüm hökmü bərpa olunmamalıdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

---

# Hüquq müdafiəçisi Yunis Səfərovla görüşmək istəyir

## Mirvari Qəhrəmanlı: "Vəkilinin "qarpız yeyib, çay içdik" açıqlaması gülünc idi"



**Artıq bir həftədir ki, ölkə gündəmini Gəncənin icra başçısı Elmar Vəliyevin güllələnməsi olayı zəbt edib. Hüquq-mühafizə və təhlükəsizlik orqanlarının iddialarına görə, icra başçısı və onun mühafizəçisinə oldu silahdan atəş açılması sıradan bir kriminal olay və yaxud qisasçılıq zəminində baş verən hadisə deyil, planlaşdırılmış terror aktıdır.**

Maraqlıdır, bəs hüquq müdafiəçiləri terrorçu elan edilən Yunis Səfərovu müdafiə edərlərmi?

Qeyd edək ki, hadisədən bir gün sonra Yunis Səfərovun ağır şəkildə döyüldüyünü əks etdirən fotoları yayıldı. Rəsmi qurumlar həmin fotonun Y.Səfərova aid olduğunu təkzib etmədi. İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin nümayəndələri bu məsələ ilə bağlı Yunis Səfərovla görüşüb, açıqlama yaydılar ki, o, saxlanma şəraiti və ona qarşı rəftardan şikayətçi deyil: "Yunis Səfərova qarşı hər hansı qeyri-insani rəftara və işgəncəyə yol verilməyib. O, saxlanmadan heç bir şikayət etmədi və işgəncəyə məruz qalmadığını bildirdi. Bildiyiniz kimi, Yunis Səfərov hadisəni törətdikdən sonra əlində silah qaçmağa cəhd edib və onu tutmaq istəyən polis əməkdaşlarına müqavimət göstərib. Bu zaman polis Yunis Səfərovu tərk-silah etmək istəyərkən ona qanunvericilik çərçivəsində güc tətbiq etmək məcburiyyətində qalıb".

**Məsələ ilə bağlı hüquq müdafiəçisi Mirvarı Qəhrəmanlı "Yeni Müsavat"a danışıb:** "İndidən Yunis Səfərovu terrorçu adlandırmaq doğru deyil. Çünki hələ sübut olunmayıb ki, bu adam niyə icra başçısına güllə atıb? Hansı səbəbdən? Bildiyiniz kimi, rəsmi orqanlar hadisədən sonra doğru-dürüst informasiya vermədi. Hərəsi məsələyə bir don geyindirdi. Beləliklə, Yunisi terrorçu adlandırmaq hələ tezdir. Yunis kimdir? Bu məsələ məhkəmə prosesində müəyyənləşəcək. O, cinayət edib, adam vurub. Lakin nədən, niyə vurub, bu araşdırılmalıdır. Hüquq müdafiəçisi kimi çox məmnuniyyətlə ona baş çəkərdim. Ona görə ki, vəkilinin "qarpız yeyib, çay içdik" açıqlaması çox gülünc idi.

İnsan cinayət törədərsə, hüquq qarşısında cavab verməlidir. Lakin bu proses elə aparılmalıdır ki, şəxsin hüquqları pozulmasın. Elmar Vəliyev o qədər insanın hüququnu pozub ki... Lakin bu, heç kimə əsas, ixtiyar vermir ki, özü məhkəmə qursun".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu isə qeyd etdi ki, məsələ tam araşdırılmadığından müdafiə haqqında dəqiq bir söz deyə bilmir:** "İlkin versiya kimi bildiriləndə ki, bu hadisə kriminal olaydır, bu versiyada da saxlanmalı idi. Bu gün onu sünni-şiə məzhəbçiliyi ilə qatıb-qarışdırır, terrorçu adlandırırlar. Bu cür versiyalar heç kəsə lazım deyildi. Hamı bilir ki, bu, kriminal məsələdir.

Lakin biz dəqiq hələ ki heç nə bilmirik. Yunis Səfərovun döyülmə şəkillərini gördükdə hüquq müdafiəçiləri kimi bu məsələni qaldırdıq. Əgər bu adam cinayət törədibsə, qanun qarşısında cavab verməli, cəzalandırılmalıdır. Lakin onu döyüb, o günə salmaq qanunsuzdur. Beləliklə, onun döyülüb, şəkillərinin hansı məqsədlə yayılması hələ ki qaranlıq məsələ olaraq qalır. Yunis Səfərovu bu cür döyməyə heç kimin ixtiyarı yoxdur".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 147 (7036) 10 iyul 2018

# “Ermənistanda hakimiyyətlə ordu arasında etimadsızlıq hökm sürür”

## Ehtiyatda olan polkovnik-leytenant: “Ermənistan ordusu hazırda indiyə kimi olmadığı bir bərbad durumdadır”

**“Əslinə qalsa, bu gün Qarabağda müharibəni başlamağa və ortaya konkret nəticə qoymağa Azərbaycanın çox gözəl imkanları və şansları var”.**

**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov** bu fikirləri “Yeni Müsavat”a açıqlamasında bildirdi. Nikol Paşinyan hökumətinin davranışlarını şərh edən hərbi ekspert Azərbaycanın bütün sahələrdə düşməni üstələdiyini vurğuladı: “Bunu bir neçə amillə əlaqələndirmək istərdim. Faktiki olaraq Ermənistan rəhbərliyində demək olar ki, müharibədən dərin anlayışı olmayan, küçə siyasətçisi Nikol Paşinyan və səriştəsiz, təcrübəsiz komandası ilə qısa bir zaman kəsiyində biz Qarabağla bağlı məsələni çox rahatlıqla həll edə bilərik. İkincisi, Rusiya ilə Ermənistanın hazırkı rəhbərliyi arasında üzdə büruzə verməyə çalışmasalar da, daxildə çox böyük inamsızlıq və fikir ayrılığı mövcuddur. Belə olan təqdirdə, əgər Rusiya müdaxilə etməsə, biz tez bir zamanda məsələni həll etmək iqtidarındayıq”. **Ü.Cəfərov indiki situasiyada ortalığa iki ölkənin XİN rəhbərlərinin Brüssel görüşünün atılmasını da məqsədli sayır:** “Belə görüşlər mənasız və perspektivsizdir. Biz bir qədər sərt və tələbkar mövqe nümayiş etdirməliyik. Yoxsa, ATƏT-in Minsk Qrupunun tülkülüklə məşğul olan həmsədrləri və onların yanındakılar indi də yeni bir hiyləyə əl atıblar. Hansısa yüksək planlaşdırma qrupundan daha bir fırıldaqçını öz bivec fəaliyyətini pərdələmək üçün qoşublar və guya iş görəcəklər. Kobud ifadəmə görə üzr istəyirəm, başlarına dəysin belə iş prinsipi və fəaliyyəti. Bunlar 20 ildən artıqdır ki, milyonlarla vəsaiti göyə üfürüblər. Odur ki, bu biveclərin nə isə edəcəklərinə mən inanmıram. Vasitəçilərə nəhayət ki, vaxt qoymaq və tələblər irəli sürmək lazımdır. Bunlar özlərinə superkomfort şəraiti və yüksək məvacibli iş yeri aşıb, başlarını girələyirlər. Bunları ağıllandırsa, Azərbaycan Silahlı Qüvvələri ağıllandıracaq”. **Ehtiyatda olan zabit qeyd etdi ki, Ermənistan ordusu hazırda indiyə kimi olmadığı bir bərbad durumdadır:** “Məhz ona görə də Paşinyanın özü və başının pozuq dəstəsi iki gündən bir əsgər və zabitlərinə bir balaca dəstək olmaq üçün səngərlərə baş çəkməyə məcburdurlar. Şəxsən mən tez bir zamanda məsələnin həll edilməsi üçün güc amilindən istifadənin tərəfdarıyam. Yoxsa biz sonradan beynəlxalq qüvvələr tərəfindən aldadıldığımızı görəndən sonra özümüzü bağışlaya bilməyəcəyik. Bir qədər sərt diplomatiya və güc amili təcili işə salınmalıdır”.


Üzeyir Cəfərov

**Politoloq Elçin Mirzəbəyli isə qəzetimizə açıqlamasında N.Paşinyanın bir neçə gün öncə Ermənistan polisini Qarabağda xidmətə göndərməklə bağlı qərarını xatırlatdı:** “Ermənistan rəhbərliyi işğal altında olan Azərbaycan ərazilərində keçirilən aksiyalar genişlənəcəyi təqdirdə daxili qoşunların birləşmələrini həmin ərazilərə göndərəcəyini bəyan edib. Bu barədə konkret qərar yoxdur. Amma faktın özü diqqəti cəlb edir. Çox güman ki, daxili qoşunların hərbi birləşmələrinin Dağlıq Qarabağa göndərilməsi üçün orada keçirilən aksiyaların əsas kimi göstərilməsi bəhanədir. Əsil səbəb Ermənistan ordusunda baş verən problemlər, daxili ziddiyyətlərin dərinləşməsi, klanlararası mübarizənin orduya keçməsi və Paşinyanın orduya etibar etməməsidir. Burada əsgər çatışmazlığı və digər bu kimi köməkçi amillər də rol oynaya bilər. Amma başlıca səbəb hakimiyyətlə ordu arasındakı etimadsızlıqdır”. **E.Mirzəbəyli qeyd etdi ki, əslində Ermənistan polisinin Dağlıq Qarabağa göndərilməsi fakt olaraq yeni deyil:** “Onsuz da işğal altında olan ərazilərimizdə mövcud olan bütün qanunsuz qurumların üstündə Ermənistandan təyin olunan şəxslər dayanır. Bunun baş nazir səviyyəsində açıq-aşkar dilə gətirilməsi isə təkcə işğal faktını deyil, həmçinin İrəvanın guya müstəqil qurum kimi fəaliyyət göstərdiklərini iddia etdiyi qanunsuz strukturların Ermənistan tərəfindən formalaşdırıldığının və idarə edildiyinin etirafıdır. Ermənistan polisinin ölkənin sərhədlərindən kənara göndərilməsi işğalçı dövlətin qanunvericiliyinə də ziddir. Rəsmi Bakının bu qərara qarşı ata biləcəyi çoxsaylı addımlar var. Şübhəsiz ki, rəsmi dövlət qurumları nə edəcəklərini daha yaxşı bilirlər. Mənim subyektiv fikirlərimə gəldikdə isə ilk növbədə bu fakt ətrafında ciddi beynəlxalq kampaniya aparılmalı və diqqət Ermənistanın işğal altındakı Azərbaycan ərazilərində polis rejimi yaratmaq cəhdinə yönəldilməlidir”.

❑ **Cavid TURAN, “Yeni Müsavat”**

# Köçəryan meydan oxudu: «Faktları açıqlayacam...»



**Ermənistanın eks-prezidenti Robert Köçəryan qiyabi formada istənilən suala cavab verə bilər.**

Axar.az xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Köçəryanın mətbuat katibi Viktor Soqomonyan deyib.

“Köçəryanın dediklərində nə dövlət, nə də xidməti sirlər olacaq. Buna görə də biz istintaq xidmətindən Köçəryanın sorğusunun videoya çəkilməsini istəyəcəyik. 1 mart 2008 və 27 oktyabr 1999-cu il (parlament terakt) hadisələri ilə bağlı faktlar gün işığına çıxanda cəmiyyət çox təəccüblənəcək”, - deyə o bildirib.

# Paşinyan üçün əks-inqilab kabusu



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Ermənistanın 1-ci şəxsi qismində Nikol Paşinyanın baş nazirliyindən iki ay ötdü. Deyir, dəniz suyunun dadına baxmaq üçün damla da yetərlidir. Paşinyanın “faydalı iş əmsalı” da artıq ortadadır.**

Şəksiz ki, daxildə o, nəsə eləməyə çalışır, nəyəsə can atır. Ola bilsin nəsə alınsın. Ancaq məsələ də bu “nəsə”dədir. Paşinyanı öz çiynində iqtidar eləmiş narazı kütləni həmin bu “nəsə” məmnun edə, razı sala biləcəkmi? Yoxsa daha bir inqilaba və ya əks-inqilaba ehtiyac olacaq? Deyəsən, olacaq.

İş ondadır ki, xarici siyasət daxili siyasətin davamı sayılır. Xaricdən isə Paşinyan hökumətinə “gəl-gəl” deyən çox olsa da, hələ ki real siyasi və maliyyə dəstəyi verən yoxdur. Hətta zəngin erməni lobbisi də hələlik tərəddüd içində olduğundan, Ermənistanda islahatlar həbslər və təqiblərdən o yana keçə bilmir. Ölkəyə vəd olunan böyük investisiya axını, pul-para isə iki aydır gözə dəymir.

Ermənistan prezidenti Armen Sərkisyanın təzəcə başa çatan Avropa və ABŞ səfəri də nəticəsi bitib. Ac-yalavac, iş-gücsüz erməni əhali isə yeni hökumətdən qısa zamanda çörək, iş yerləri gözləyir. Ac qılınca çapar.

Düzdür, iki aydır ABŞ və Avropadan, hətta NATO yetkililərindən Paşinyan iqtidarına vədlər səslənir. Ancaq bunlar elə vəd olaraq qalır. Çünki Qərb Nikol Paşinyanı özünə “bir köynək” yaxın saysa da, Ermənistanın kimin qapazı altında olduğunun yaxşı fərqindədir. Qərbdə haqlı olaraq əminlik var ki, Rusiyanın ağuşunda qala-qala Ermənistanda islahatlar aparmaq, demokratik-siyasi dəyişikliklərə nail olmaq, o sırada iqtisadi həyatı və idarəetmənin liberallaşdırmaq mümkün deyil.

Bu gerçəkdən də belədir. O səbəbə ki, Rusiya hərbi faktor da daxil, bilavasitə Ermənistanın içindədir. Onun olan-qalan iqtisadiyyatı, ən əsası, enerji sistemi və təsərrüfatı - Metsamor AES, elektrik-qaz şəbəkəsi Rusiyanın, onun şirkətlərinin nəzarətindədir. Yaxud silah və başqa kreditlərin qarşılığında Rusiyanın mülkiyyətinə keçib.

Paşinyan isə bu strateji sahələr üzrə də islahat aparıb Rusiyanın təsirini minimuma endirmək istəyir. Buna məcburdur, çünki iqtisadi müstəqilliyi olmayan ölkənin siyasi müstəqilliyi olmur. Demək, günün birində o, Kremlin “quyruğunu” tapdamaq zorunda qalacaq.

Onsuz da o, komandasını anti-Rusiya kadrlarından təşkil eləməklə özünü Kremlin qəzəbində gətirib. Üstəgəl, Qarabağ ixtilafının yaratdığı izolyasiya rejimi, iki böyük qonşu - 80 milyonluq Türkiyə və 10 milyonluq Azərbaycanla qapalı qalan sərhədlər, davam edən problemlər.

Doğrudur, Paşinyanın “islahat” adına nəsə eləməsi, daha dəqiqi, çabalamaları Qərbə xoş gəlir. Ancaq yetərli deyil. Obrazlı desək, qismən hamiləlik (islahat) olmur. O ya var, ya da yoxdur. Qərb isə pulu elə-belə vermir, verməyəcək və real islahatlara qədər Paşinyan iqtidarına üç barmağın konfiqurasiyasından ibarət işarəni göstərməkdə davam edəcək. Gürcüstan, Ukrayna örnəkləri var, hər halda.

Bu xüsusda sabah Brüsseldə başlayacaq NATO sammiti Paşinyanın siyasi taleyində dönüş nöqtəsi ola bilər. Çünki Moskvada onun Brüssel səfəri ilə bağlı böyük qıcıq var. Paşinyan özü də bunu dərk edir və səfərlə bağlı son günlər müəyyən tərəddüd keçirir...

Aydındır ki, bir gözü Qərbdə olan, potensial olaraq Qərbə satılmağa hazırlaşan Ermənistanla Rusiyanın müttəfiqliyi mümkün olan iş deyil. Belədə öz ağası ilə “bağların qırılması” qarşılığında Paşinyan həm özünü, həm də işğalçı ölkəni gözləyən bədələ hazır olmalıdır. Hər halda NATO, ABŞ uzaqda, Rusiya, onun böyük hərbi kontingenti isə Ermənistanın içindədir. Ermənistanın Türkiyə və İranla sərhədlərini belə, ruslar qoruyur. Paşinyan gərək bunu da unutmasın ki, Ermənistandakı əhalidən daha artığı (3 milyon) bu gün Rusiyada əmək miqrantı kimi ailəsinə çörəkpulu qazanır.

Bu fonda dünən Nikol Paşinyanın oğlu Aşot hərbi xidmət keçmək üçün Azərbaycanın işğal altındakı Qarabağ bölgəsinə yollanıb. Təbii ki, Aşotun özündən olsaydı, ömründə yad ölkə ərazisinə, müharibə zonasına, güllə qabağına, ölümə getməzdi. Amma o da indi atasının populist siyasətinin girovu olmaq zorundadır. Fəqət, çifayda?

Aşotun “Qarabağ gedişi” sözsüz ki, xalqını populizmlə doydurmaq üçün Paşinyanın atdığı növbəti addımdır. Ancaq hara kimi? Populizm limiti də sonsuz deyil. Əslində bitmək üzrədir...

MÜSAVAT
YENİ
N 147 (7036) 10 iyul 2018



# Fındıq üzərində yatan şikayətçi

Zamin HACI
zaminhaci@gmail.com

*(Xalq nağılı)*

Uzun illərin jurnalist təcrübəsindən sonra mən şikayət məktublarını dərc etdirmək istəyən oxucularıma adətən bu fikirdən daşınmağı tövsiyə edirəm. Məsləhət görürəm bəlkə dərdini qəzetdə yazmazdan öncə başqa üsulları - tapşırıq, xahiş, minnət, yalvarış, ödəniş, qurban kəsmə, nəzir vermə, falabaxma, pirə tapşırma, cadu-piti, bayatı çağırma, qarğış, dua, və sairə - sınasın. Çünki başına gələn başmaqçı olur, mən bilirəm ki, bizim məmurlar qəzetdə onlardan şikayət getməsini qətiyyən xoşlamırlar. Məmurdan qəzetdə yazmaq arı yuvasına çöp soxmaq kimi bir şeydir. Daha hirslə şikayətçinin üstünə gedirlər, onu məhv eləməmiş sakitləşmək bilmirlər. Ara yerdə biz jurnalistlər, necə deyərlər, "vayqanlı" oluruq. Hətta neçə dəfə olub, şikayətçi məmurun hücumlarına tab gətirməyərək onun tərəfinə keçərək bizə qarşı olmuşdur.

Keçən həftə Qazax rayonundan şikayət məktubu alanda da eyni məsləhəti verdim, 2-ci qrup əlil Azər Məmmədliylə şikayətiylə bağlı üstəlik telefon danışığımız oldu, ona dedim bunu yazmayaq, həm xeyri olmayacaq, həm başı ağrıyacaqdır. Eşitmədi. Dedi sən bilmirsən, qəzet yazanda reaksiyası böyük olur. Buyurun. Baxın görün "reaksiya" necədir...

Öncə şikayətin qısa məzmununu bir cümlədə xatırladım. Azər Məmmədli yazır ki, Qazağın icra başçıcı şəhərdəki böyük parkın ağaclarını qırır, mən buna etiraz elədiyim üçün isə göstəriş verib, əlillik pensiyamı kəsiblər. Bunu mən keçən həftəki, 6 iyul tarixli "İşıqlı avtoritarizm" başlıqlı köşə yazımda verdim. Yazı çıxan gün gözlənilməz reaksiya ilə üzləşdim və hətta Azər Məmmədliyə ürəyimdə haqq qazandırdım, fikirləşdim, deyəsən, təcrübəm səhv çıxır, ölkəmizdə məmur-media münasibətlərində nələrsə ciddi formada dəyişir. Çünki birbaşa Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun direktor müavini Cavid Abdullayev məni axtarıb yazıdakı məsələ ilə bağlı fakt istəmişdi. Abdullayev bildirirdi ki, belə şey ola bilməz, fond icra hakimlərinin göstərişi ilə işləmir, DSMF Qazax rayon şöbəsi ilə əlaqə saxlayıb, fakt təsdiqlənmir, gərək biz qəzetdə bu münasibətlə təkzib verək. Mən də dedim, baş üstə. Ancaq DSMF Qazax rayon şöbəsinin müdiri Laçın Qurbanovun cəmi 10 gün qabaq - 28 iyunda Azər Məmmədliyə göndərdiyi, rəsmi möhürlü, nömrəli məktubu nə eləyək? Bu məktub varkən, nəyi təkzib edim? Həmin məktubda Qurbanov yazır ki, daha sənə pensiya verilməyəcəkdir. Halbuki Azər Məmmədlinin növbəti həkim yoxlamasına hələ 2 il qalırmış. Burada icra hakimiyyətinin barmağı aydın görünürdü. Mən məktub haqda DSMF-yə məlumat verdim, bununla da söhbət sanki bitdi. Yəni bir növ heç-heçə alındı: icra başçısı kefində, DSMF süddən çıxmış ağ qaşıq, şikayətçi də pensiyasız qaldı. Vəssalam-şüttəmam. Keçəli verdilər paççahın qızına... Şikayətçiyə necə xəbərdarlıq eləmişdimsə elə də oldu. Ancaq ürəyimdə bir nigaranlıq qalmışdı, çünki dövlət orqanlarının onlardan şikayət edənləri bu cür "sakit buraxacağına" ümid eləmirdim. Dünən Azər Məmmədlinin telefon zəngi nigarançılığıma son qoydu, dövlətçiliyimizdən daha bədgüman olmadım. Ürəyim yerinə gəldi, vallah.

Məmmədli deyir ki, indi icra başçısı prokurorluğa göstəriş verib, onlar rayon xəstəxanasının həkimlərini yoxlamağa başlayıblar, həkimləri "Nə üçün siz Azər Məmmədliyə vaxtilə əlillik dərəcəsi vermisiniz" deyə incidirlər *(Məmmədli ağır formada şəkərli diabetdir, hətta qanqrena üzündən barmağını kəsiblər - oxuculara bilgi üçün).* Yəni, proses daha genişlənibdir, parkın, şikayətçinin, "sabes" müdirinin təpə-qapaz olunmasına prokuror və həkimləri də qatıblar. Halal olsun. Bax, güclü dövlət belə olur! Yoxsa hər yerindən duran bir şikayət ərizəsi cızmaqara eləsin, bu ondan yazsın, o bundan pozsun... Bizim öz milli-mənəvi dəyərlərimiz, ağsaqqal-ağbirçək, icrabaşı-prokuror, sabes-mabes ənənələrimiz vardır.

Ancaq bu qədər dağa-daşa düşməyə nə ehtiyac vardı anlamadım. Elə birdəfəlik elan etmək olmazdımı ki, Qazax rayon sakini, filan ilin beşməkan ayında doğulmuş Azər Məmmədli adlı şəxs tərəfimizdən araşdırılmış, belə bir insanın yox olduğu qeydə alınmışdır? Vəssalam. Adam yoxdur, problem də yoxdur. Əlilliyi araşdır, şikayətə bax, prokuroru çağır, həkimin dərisini soy... Bunlar uzundəra işlərdir. Qısaca yazırsan belə adam yoxdur. Qoy qalsın qışqıra-qışqıra.

Hələ bunu televizorda "Qeybdən gələn qışqırıq Qazax sakinlərini şoka saldı" başlığıyla göstərmək də olar. "Buzovun beşinci ayağı çıxdı", "Fındıq üzərində uçaskovunun adı yazılıb", nə bilim, "Anasının Dubaya getdiyini manısa efirdə dedilər" tipli xəbərlər kimi...



# ABŞ Ermənistan üçün ağır şərtini açıqladı - Bakı üçün siqnal

## Amerikanın İrəvandakı səfirindən Paşinyanın Brüssel səfəri ərəfəsi maraqlı mesajlar; Ağ Ev Ermənistana ciddi maliyyə köməyi göstərməyə tələsmir və "Yol xəritəsi" təklif edir - səbəb

**ABŞ-ın Ermənistandakı səfiri Riçard Millz "Amerikanın səsi" radiosuna (erməni redaksiyası) müsahibə verib. "Yeni Müsavat"ın məlumatına görə, diplomat işğalçı ölkədə hakimiyyət çevrilişindən sonrakı iki ayda gedən proseslərə yekunvari münasibət bildirib.**

Diplomat Amerikanın Ermənistanla əməkdaşlığının stimullaşdırılması üçün vacib olan məsələlərdən danışıb, Ermənistan iqtisadiyyatına ABŞ sərmayəsinin qoyulması imkanlarından söz açıb. Erməni qaynağının yazdığına görə, mayın 8-də ölkədə situasiya keyfiyyət dəyişikliyinə məruz qaldığı üçün amerikalı səfir bunu "ikitərəfli əlaqələrin inkişafı üçün böyük şans" olaraq qiymətləndirib.

"Hesab edirəm ki, əgər yeni hökumət korrupsiyanın qarşısını almaqda və məhkəmə sisteminin müstəqilliyini təmin eləməkdə tərəqqiyə nail ola bilsə, o zaman ikitərəfli ticarətin və əməkdaşlığın həcmi daha da artacaq. Çünki son 3 ildə mən səfir olaraq həm amerikalı biznesmenlərdən, həm də erməni iş adamlarından sahibkarlığın inkişafı önündə əsas maneə kimi oyun qaydalarının ədalətli olmaması barədə dəfələrlə şikayətlər eşitmişəm. Yeni sistem birinə qarşı daha yumşaq, digərinə qarşı isə başqa cürdür", - deyə diplomat Ermənistanda korrupsiyanın nə dərəcədə dərinə işlədiyinə işarə vurub.

Yəni faktiki surətdə ABŞ rəsmi elçisi bununla növbəti dəfə Paşinyan iqtidarının diqqətinə çatdırıb ki, bu sahədə sistemli dəyişikliklərə ehtiyac var, səthi islahatlar Vaşinqtonu qane etməyəcək və demək, böyük ABŞ sərmayələrinə və himayəsinə ümid eləməyə də dəyməz.

Bu, Paşinyana ABŞ-ın ən mühüm mesajı və ya şərti sayıla bilər. "Hesab edirəm ki, ədalətli sistemin bərqərar olması, problemin sistemli şəklində aradan qaldırılması üçün yeni strukturları gücləndirmək, yeni qanunlar hazırlamaq da vacibdir", - deyə diplomat qeyd edib.

*****

Şübhəsiz ki, korrupsiya ilə mübarizə qanunverici səviyyədə də vacibdir və yeni qanunlar hazırlanmalıdır. Ancaq Ermənistanın indiki parlamentində Sərkisyan rejiminin təmsilçiləri üstünlükdədir. Onların köklü islahatlara kömək edəcək yeni qanunverici aktların qəbul edilməsinə yardımçı olacağını düşünməyə dəymir.

Qalır növbədənkənar parlament seçkilərinin keçirilməsi. Paşinyan və komandası isə bu seçkilərə köhnə Seçki Məcəlləsi ilə və xalqın durumunda yaxşılaşma olmadan getmək istəmir. Korrupsiya qaldıqca da əhalinin güzəranını yaxşılaşdırmaq mümkün deyil. Necə deyərlər, burada dairə qapanır.

"Biz bir şeydə yekdillik ki, ölkədə qanuni, ədalətli parlament seçkiləri keçirilməlidir. Özü də bu seçkilər, onları ədalətli təşkil eləmək mümkün olacağı təqdirdə maksimum tez reallaşmalıdır. Bu, doğrudan da çox mühümdür. Biz prosesə kömək eləmək istəyirik" - bu sözləri də müsahibəsində səfir Millz söyləyib.

Diplomatın son fikirləri əslində Paşinyan hökumətinə aydın mesajdır ki, Ermənistanın yeni hakimiyyəti hansı halda və hansı şərtlər altında Amerikanın real maliyyə və başqa dəstəyinə ümid bəsləyə bilər. Bu, həmçinin o anlama gəlir ki, ABŞ, xaricdəki imkanlı erməni lobbisi böyük maliyyə dəstəyi məsələsində hələ bir müddət də, ən azından növbədənkənar seçkilərin nəticələri bilinənədək gözləməli olacaq.

Bu, Paşinyan və onun qərbyönlü komandası üçün müəyyən mənada şirnikləndirici olsa da, eyni zamanda məyusedici mesajdır, ölkədə islahat adına aparılan işlərin ABŞ-ı tam qane eləməməsi deməkdir. Yəni böyük siyasi iradə məsələsi...

*****

Amerikalı səfirin müsahibəni baş naziri N.Paşinyanın sabah - iyulun 11-də Brüsselə səfəri ərəfəsi verməsi də maraq doğurur. Ehtimal ki, iki günlük NATO sammiti çərçivəsində Paşinyan "Qərbin adamı" kimi, özünütəbliğ naminə ABŞ prezidenti Donald Trampla heç olmasa şəkil çəkdirmək şərəfinə nail olmağa çalışacaq. O Tramp ki, sələflərindən fərqli olaraq, ətrafında erməni lobbisi yoxdur, Amerika erməni lobbisinin Trapma əli çatmır, ona çıxış imkanları, faktiki, mövcud deyil. Üstəlik, Tramp biznesmen-milyarderdir kimi ədalətli biznes mühitinin şərtlərini əla bilir.

Qalır Paşinyanın özünü Trampa, Amerikaya ayrı sür sevdirməyi - nə barədə ki, səfir Millz yetərincə açıq danışıb: qısa zamanda korrupsiyanın kökünü kəsmək, məhkəmələrin müstəqilliyini təmin eləmək, bütövlükdə sistemli islahatlara nail olmaq. Bu, əslinə qalsa, ABŞ-n Ermənistana kömək üçün təklif elədiyi "Yol xəritəsi"dir.

Erməni baş nazir bunları bacaracaqmı, buna siyasi iradəsi və potensialı çatacaqmı? Rusiya imkan verəcəkmi? Əsas da budur. Çünki işğalçı ölkədə böyük Amerika sərmayələri hər şeydən öncə Ermənistan üzərində ABŞ-ın söz sahibliyi demək olacaq, Rusiyanın tezliklə Ermənistandan çıxması anlamına gələcək.

Moskvanın bunu kənardan sakitcə seyr edəcəyi, Güney Qafqazdakı yeganə forpostunun öz əzəli rəqibi Amerikaya keçəcəyi ilə barışacağı, yumşaq desək, inandırıcı görünmür. Ən maraqlısı odur ki, bunu İrəvanda da, Vaşinqtonda da yaxşı bilirlər. Elə Bakıda da...

❑ Siyasət şöbəsi, "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 147 (7036) 10 iyul 2018

**Xəbər verildiyi kimi, Avropa Parlamenti Avropa Birliyi ilə Azərbaycanın yeni sazişi üçün şərtlər siyahısını qəbul edib. Şərtlərə görə, gələcək saziş əsas azadlıqları təmin etməli, həmçinin korrupsiya, çirkli pulların yuyulması və vergidən yayınmaya qarşı mübarizəni nəzərdə tutmalıdır.**

# Avroparlamentin Azərbaycanla bağlı qərarında AŞ izi

## Anti-Azərbaycan mövqeyinə köklənmiş Avropa Şurası Avropa Parlamentinin mövqeyinə təsir edir



Danışıqlar başa çatana qədər Azərbaycanın öz siyasi və vicdan məhbuslarını azad etməsinin vacibliyi, məhkəmə sistemində islahatlara, iqtisadi cinayətlərə, korrupsiya, pulların yuyulması, vergidən yayınmaya qarşı mübarizəyə dair konkret tədbirlər görülməsinə çağırış edilib. Sənəddə bildirilir ki, Avropa Parlamentinin deputatları ümid edirlər ki, əgər əsas şərtlər yerinə yetirilərsə, 2019-cu ildə AB-Şərq Tərəfdaşlığı sammitinə qədər Azərbaycanla yeni saziş imzalana bilər. Onlar həmçinin təkidlə AB-ni Avropa Parlamenti öz razılığını verməyincə yeni sazişin ilkin qaydada qüvvəyə minməməsini təmin etməyə çağırıblar.

Azərbaycan hökuməti və hakim partiyanın bəzi deputatları Avropa Parlamentinin bu addımının ölkəmizə qarşı təzyiq məqsədi güddüyünü bildiriblər.

**Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev isə iyulun 9-da Avropa Parlamentinin qətnaməsinə münasibət bildirib. Hikmət Hacıyev jurnalistlərə açıqlamasında deyib ki, təəssüflər olsun Avropa parlamentində bir sıra qüvvələr var. Onlar şəxsi maraqlarından çıxış edən dairələrdir:** "Düşünürlər ki, bu yolla Avropa Birliyi-Azərbaycan əlaqələrinə xələl gətirə bilərlər, ancaq öz məqsədlərinə nail ola bilməyəcəklər. Avropa İttifaqı Birliyi və Azərbaycan arasındakı əlaqələr dinamik surətdə inkişaf edir. Əlaqələrimiz enerji, nəqliyyat uzlaşmaları, humanitar, iqtisadi, ticarət və digər sahələrdə yaxşı inkişaf edir və bu gün Azərbaycan-AB arasında strateji tərəfdaşlığa dair saziş layihəsinin müzakirəsi əldə olunan irəliləyişlərin bariz göstəricisidir".

Avropa Birliyinin həmişə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini xatırladan XİN təmsilçisi deyib ki, Avropa Parlamentdə AB-Azərbaycan əlaqələrinin inkişafında maraqlı olmayan qüvvələrin mövqeyinə rəğmən əlaqələrimiz davamlı şəkildə inkişaf edəcək.

Avropa Parlamentinin Azərbaycanın Avropa Birliyi ilə saziş imzalaması üçün şərtlər irəli sürməsində, Avropa Birliyinə bu şərtlər yerinə yetirilməyincə Azərbaycanla saziş imzalamamaq yasağı qoyulmasında Avropa Şurasının son zamanlar Azərbaycanla münasibətlərindəki durumun da təsirinin olduğu bildirilir. Belə ki, Avropa Şurası Parlament Assambleyasından son iki ayda Azərbaycana, Azərbaycan nümayəndə heyətinə qarşı ard-arda qərarlar qəbul edilib. Nümayəndə heyətinin rəhbəri Səməd Seyidova sanksiya tətbiq edilib, AŞ PA-dakı nümayəndə heyətimizin keçmiş üz üzvünə ömürlük AŞ PA-ya giriş qadağı qoyulub. Bundan başqa, iyunun 25-29-da Strasburqda Avropa Şurası Parlament Assambleyasının yay sessiyasında Azərbaycanda 11 apreldə keçirilmiş prezident seçkiləri müzakirəyə çıxarılıb və seçkiləri tənqid edən sənəd qəbul edilib. Sessiyada Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının durumu barədə tənqidi müzakirə aparılıb. Eyni zamanda Azərbaycana siyasi məhbuslarla bağlı məruzəçi təyin edilib. Azərbaycanın bu şəkildə hədəfə alınması, ard-arda təzyiq xarakterli addımların atılması Avropa Parlamentinin də qərarına təsirsiz ötüşməyib.

**Avropa İttifaqı üzrə mütəxəssis, siyasi analitik Yeganə Hacıyeva "Yeni Müsavat"a bildirdi ki, əslində Azərbaycanla əməkdaşlıq, tərəfdaşlıq sazişinin imzalanması daha çox Avropa Birliyinin özünə lazımdır:** "Azərbaycan Avropa Birliyinin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol alıb, qarşılıqlı əməkdaşlıq tərəflər üçün strateji əhəmiyyət daşıyan bir münasibətdir. Xeyli vaxtdır tərəflər Avropa Birliyi ilə Azərbaycan arasında bərabər tərəfdaşlıq və qarşılıqlı faydalılıq prinsiplərinə əsaslanan strateji tərəfdaşlıq sazişi üzərində işləyirlər. Saziş qarşılıqlı faydalılıq əsası ilə Avropa İttifaqı və Azərbaycan arasında bir çox sahələrdə əməkdaşlığın artırılması, tərəfdaşlar kimi birgə fəaliyyət göstərilməsi və əlaqələrin tam şəkildə inkişaf etdirilməsinə dair birgə fəaliyyət üçün nəzərdə tutulur. Azərbaycan Avropa Birliyi ilə mövcud əməkdaşlıq mexanizmləri çərçivəsində beş əsas istiqamət-qanunvericilik, nəqliyyat, struktur dəyişikliyi, enerji, mübadilə və sair proqramlar üzrə əməkdaşlıq edir. Uzun illərdir ki, Azərbaycan Avropa Birliyinin Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrinin inkişafı proqram layihələrini, dövlətlərarası neft və qazın ixracı proqramı layihələrini uğurla iştirak edir və həyata keçirir.

Azərbaycan qanunvericiliyinin və prosedurların Avropa Birliyinin standartlarına, beynəlxalq ticarət normalarına uyğunlaşdırılması, yüksək səviyyədə iqtisadi inteqrasiya, enerji təhlükəsizliyi və siyasi, təhlükəsizlik dialoqunun aparılması, Azərbaycan mallarının Avropa Birliyi bazarlarına daxil olmasını asanlaşdırması proqramları mövzular üzrə irəliləyişlər var. Azərbaycan və Avropa İttifaqının 14 üzv ölkəsi ilə hökumətlərarası komissiya, 2 üzv ölkəsi ilə işçi qrupu fəaliyyət göstərir. Azərbaycanla Avropa Birliyi arasında viza rejiminin sadələşdirilməsi və readmissiya barədə iki saziş mövcuddur. Danışıqların bu pilləsində Azərbaycan və Avropa Birliyi arasında yeni sazişın 4 əsas istiqamət üzrə: siyasi, təhlükəsizlik, ticarət və investisiya məsələləri üzrə ümumi razılaşmalar mövcuddur. Avropa Birliyi ilə sazişin digər bəndləri üzrə danışıqlar, ümumi müzakirələrin davam etdiyi və saziş imzalanması üçün xeyli məsafə qət edildiyi bir vaxtda Avropa Parlamentinin şərtlər irəli sürməsi Avropa Birliyinin özünü çətin durumla üz-üzə qoyur".

Ekspert hesab edir ki, şərtlər irəli sürülməsinə baxmayaraq yəqin ki, Avropa Birliyi sazişin imzalanması istiqamətində iş aparmaqda maraqlı olacaq.

VİP sədri Əliyev isə bildirdi ki, belə şərtlərin irəli sürülməsi yaranmış vəziyyətə münasibdir. Əgər biz Avropanın bir hissəsi olmaq istəyiriksə, Avropanın standartlarına uyğun yaşamalıyıq.

Standartlarsız isə bizi oralarda heç kəs gözləmir. Azərbaycan seçim etməlidir-ya çökən Rusiya, ya da standart təklif edən Qərb. Düşünmək üçün vaxt daralır. Son baş verənləri də seçim tərkibinə aid etmək olar. Belə təhdidlər ən ağlasığmaz şəkildə təzahür edə bilər.

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Paşinyan hansı yolu tutmaqda qərarlıdır?.. - təhlil



**Hüseynbala SƏLİMOV**

**Adam bir dostların, bir də düşmənlərin hərəkətini izləyir. Dostun hərəkətini ona görə izləyirsən ki, uğurlarına sevinəsən. Düşmənisə ona görə nəzərdə saxlayırsan ki, səndən önə keçməsin.**

Bu məntiqlə Ermənistanla müharibə aparmağımızdan burada baş verən hər şey bizimçün maraqlı olmalıdır.

Həm də yalnız Azərbaycan deyil, digər ölkələr də və ən birincisi də Rusiya ciddi şəkildə Ermənistandakı prosesləri izləməklə və bu ölkənin hara istiqamət götürəcəyini müəyyənləşdirməyə çalışmaqla məşğuldur.

Proseslər isə bir tərəfdən həm bəşəri məntiqə uyğun gəlir, həm də erməni məntiqinə. Bəşəri məntiqdən baxanda N.Paşinyan eyni zamanda bir neçə məsələni həll etməyə çalışır.

Bir tərəfdən hüquq və qanunun bütün gücünü əski S.Sarksiyan hakimiyyətinə yönəltməklə özünün əsas siyasi rəqibini bu il keçiriləcək parlament seçkiləri ərəfəsində zəiflətməyə cəhd edir.

Digər tərəfdənsə iqtisadiyyatda yeni nəfəslik açmaq gücündə olmayan baş nazir anlayır ki, korrupsiya və rüşvətxorluqla mübarizə bütün hallarda bu işi aparan siyasi qüvvəyə müsbət dividentlər gətirir. Üstəlik, belə neqativ hallara qarşı mübarizə həm də mövcud iqtisadiyyatda kiçik də olsa, tərpəniş yaratmaq iqtidarındadır.

Elə bu səbəbdən də bütün bu prosesləri bəşəri məntiqlə anlamaq və yozmaq mümkün bir işdir. Amma elə şeylər də var ki, onları anlamaq üçün bəşəri məntiq acizdir və burada yalnız erməni məntiqi yardımçı ola bilər.

İnqilab o deməkdir ki, qısa müddətdə cəmiyyət bir çox sferalarda aparılan siyasəti kardinal şəkildə dəyişmək olmasa da, hər halda, ciddi təftiş etmək zərurəti duyur. "Məxməri erməni inqilabı" ilə bağlı da bunu gözləyirdik. Amma olmadı...

Paradoksal məqam nədir? Deyirik ki, Dağlıq Qarabağla bağlı məsələlərdə, Azərbaycana münasibətdə Paşinyan elə Koçaryanın və Sarkisyanın yürütdüyü siyasəti davam edir. Halbuki həm Ermənistanın maraqları, həm də inqilabın məntiqi tamamilə başqa şey tələb edir.

Sual yaranır: Koçaryanın və Sarkisyanın Dağlıq Qarabağ problemilə bağlı apardığı siyasətin ən böyük qüsuru bu qondarma qurumu hələ də "müstəqil dövlət" kimi tanıtmaması idi, yoxsa Dağlıq Qarabağ adlı erməni prosesinin, ümumiyyətlə, tamamilə mənasız, heç bir vaxt həyata keçməyəcək xülya olduğunu anlamamaqları idi?

N.Paşinyanın bəyanatlarına və yaxud da şərhlərinə baxsaq, birinci əlaməti görərik - guya R.Koçaryanla S.Sarkisyanın səhvi bu müstəvidə düzgün siyasət aparmamaqdan, xüsusən də qondarma "dqr"-i tanıtmaqda yetərincə israrlı olmamaqdan ibarətdir.

Halbuki ortada R.Koçaryandan və S.Sarkisyandan da başqa L.Ter-Petrosyan presedenti də var. Ya Paşinyan Sarkisyanla Koçaryanı haqlı saymalıdı, ya da ki, L.Ter-Petrosyanı. Deyilənə görə, onun Petrosyanla yollarının üst-üstə düşdüyü vaxtlar da olub və elə biz də düşünürdük ki, Paşinyan heç olmasa, Qarabağla siyasətini formalaşdırarkən Petrosyanın da rəyini öyrənməyə cəhd edər. Amma olmadı...

Məsələnin paradoksal tərəfinə gəldikdə, biz Paşinyanı Koçaryan və Sarkisyan siyasətini davam etdirməkdə, ruslar isə bunun əksində ittiham edir.

Bu günlərdə Kremlin sözçülərindən biri, A.Duqin işarə etdi ki, hakimiyyətlər "dövlətçilik xəttini davam etdirməli"dirlər və belə yöndən yanaşanda Paşinyan da Koçaryanla Sarkisyanın siyasi kursunu dəyişməməlidir. Aydın məsələdir ki, rusları, o cümlədən də A.Duqini ən çox narahat edən Ermənistan-Rusiya münasibətləridir və onlar həmin bu müstəvidə Paşinyandan da Koçaryan və Sarkisyan kimi itaətkarlıq tələb edirlər.

O, itaətkar olacaq və ya olmayacaq-bunu zaman göstərəcək. Amma indidən aydındır ki, bununla bağlı Kremlin iki ssenarisi ola bilər. Paşinyanın dönük çıxacağı təqdirdə Kreml əvvəlcə Ermənistandakı vəziyyəti içəridən korrektə etməyə çalışacaq. Bununçün onun yetərincə təcrübəsi var. Yox, alınmazsa, o halda ciddi şəkildə "Qarabağ kartı" işə düşəcək. Buna qəti şübhəniz olmasın. Təbii, bu halda Kreml nəzərlərini Bakıya yönəldəcək...

Paşinyan isə bir az Saakaşvili (ölkədə korrupsiyanı cilovlamaq, qanunçuluq atmosferi yaratmaq), bir az da Koçaryan və Sarkisyan olmaq istəyir. Bir daha deyirik ki, bunlar Ermənistanın daxili siyasi mühitinə və bir də Dağlıq Qarabağ probleminə aiddir.

Aydınlaşmamış məqamsa Rusiyayla qurulacaq siyasətdir. Necə olacaq, necə bitəcək bu proseslər - İnşallah, bunu da görəcəyik.

N.Paşinyan L.Ter-Petrosyan qədər Şərq dünyagörüşünə və mədəniyyətinə bəlli olmasa da, güman, Şərq müdriklərindən tamam xəbərsiz də deyil, çünki bu da bəşəri mədəniyyətin hissəsidir və ümid edirik ki, ermənilər də özlərini ona aid edir və kəndilərini yad planetli saymırlar. Yer planetinin ağıllı insanlarınınsa (istər şərqli olsun, istərsə də qərbli!) bir kəlamı var: "hər şeydən bir az" həm də heç nə deməkdir.

Həm də hər şeyi qamarlamaq erməni xislətidir. Başları buna görə çox daşa dəyib, amma özlərinə qoyulmayıblar, çünki çiyinlərindəki baş yox, Allah bilir, nədir...

YENİ MÜSAVAT
N 147 (7036) 10 iyul 2018

# KTN jurnalistləri bölgələrdə görülən işlərlə tanış etdi

## Anar Hüseynov: "Aqrar sahədə aparılan islahatlar, tətbiq olunan yeniliklər ilk növbədə şəffaflığın təmin olunmasını və ictimaiyyətin daim məlumatlandırılmasını zəruri edir"

**İyulun 6-da Kənd Təsərrüfatı Nazirliyi Şəki, Qax, Gəncə və Ucara mediatur təşkil edib. 20 nəfərə yaxın media nümayəndəsinin qatıldığı mediaturun əsas məqsədi qeyd edilən bölgələrdə görülən kənd təsərrüfatı işləri ilə ictimaiyyəti məlumatlandırmaq olub.**

Musavat.com-un əməkdaşının da qatıldığı mediatur ümumilikdə 3 günü əhatə edib. İlk günlə bağlı ötən sayımızda məlumat vermişdik. Mediaturun ikinci günündə jurnalistlər Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) olub və universitetin maddi-texniki bazası, o cümlədən tələbə evləri, müasir heyvandarlıq kompleksi və digər yerləri gəziblər. Universitetdə jurnalistlərə bələdçilik edən ali təhsil müəssisəsinin rektoru, professor İbrahim Cəfərov bir sıra faktları açıqlayıb.

**Rektor bildirib ki, son illər dövlətin qayğısı nəticəsində xeyli işlər görüblər:** "Bu gün ölkənin Aqrar Universitetə çox böyük ehtiyacı var. Çünki yeganə aqrar təhsil verən universitetdir. Buna baxmayaraq, çox ciddi problemlərimiz var. Bazarda rəqabət mühiti tam formalaşmalıdır, yaxşı kadr üstündə çəkişmə getməlidir. Bu baxımdan iri fermerlərə, şirkətlərə müraciət edirəm ki, universitetimizdə təhsil prosesində iştirak etsinlər. Qoy adi fermer kitab cümlələrindən kənar bizimlə öz təcrübəsini bölüşsün. Qoy desin ki, necə adi kəndlidən böyük fermerə çevrilib müvəffəqiyyət qazandı, hansı yollardan keçdi".

**İ.Cəfərov kənd təsərrüfatı naziri İnam Kərimovun bu sahəyə diqqətindən də danışıb:** "Bu sahəyə marağı artırmaq üçün kənd təsərrüfatı nazirinin göstərişi ilə 500-dən yuxarı bal toplayan tələbələrə büdcədənkənar 200 manat veriləcək. Bu, böyük stimuldur. Biz bu yolda inamla, əzmlə çalışırıq. Bu il universitetin maddi texniki bazasını gücləndirmək üçün ümumilikdə 1.5 milyon manat vəsait ayrılıb. Bir yataqxananın tikintisinə isə 50 milyon vəsait ayrılıb. Hazırda yeni və müasir yataqxanamızda 1000-dən çox tələbənin qalma imkanı var. Hər tələbənin illik ödənişi isə 250 manatdır.

İ.Cəfərov qeyd edib ki, Bakıda oturub Aqrar Universitet haqqında illüziya yazmaq olmaz: "İbrahim Cəfərov universiteti dağıdır", "universiteti talayır" demək olmaz. Bizə çamur atanlar bu monopoliyanı əldən buraxmaq istəməyənlərdir. Mən dağıdıramsa, gəl araşdırma apar. Əyrilik varsa, yaz. Amma kiminsə haqqına girib böhtan yazma. Universitetimizdə gördüklərinizin 99 faizi böyük zəhmət hesabına son 5 ildə yaradılıb. Builki məzun günündə cənab İnam Kərimova onunla hansı şəkildə əlaqə saxlayacağımı soruşdum. O, dərhal mənə əlaqə nömrəsini verdi. Biz hər gün ən azı 1 dəfə əlaqə saxlayırıq. Bu bir şəxsi əlaqə deyil, universitetimizin daha da inkişafı üçündür. Çünki həllini gözləyən çox sayda problemlərimiz var. Problemlərimizi həll etməliyik, ən əsası təhsil proqramlarımız yenilənməlidir".

Daha sonra jurnalistlər universitetin maddi texniki bazası ilə yaxından tanış edilib, danışılanların əyani şahidi oldular.













Mediaturun son günündə isə jurnalistlər Respublika Süni Mayalanma Mərkəzinə aparıldı.

**Burada mərkəz barəsində məlumat verən direktoru Ramiq Abbasov söylədi ki, 2007-ci ildə yaradılan mərkəzin əsas məqsədi ölkədə aqrar sahənin inkişafını təmin etməkdir:** "Bütün dünyada maldarlığın damazlıq, cins tərkibinin dəyişdirilməsi süni mayalanmadan keçir. Artıq respublikada 2009-cu ildən yeni sort buzovlar doğuldu və sahibkarların bu sahəyə marağı artmağa başladı. Müəssisənin yeni binası 2015-ci ildə qurulub. Bura eyni zamanda regional təlim mərkəzi funksiyasını da yerinə yetirir. Hazırda mərkəzdə 6 cins üzrə 36 baş heyvan var".

**KİV nümayəndələri Heyvandarlıq Elmi Tədqiqat İnstitutunda da oldular. Müəssisənin direktoru Mahir Hacıyev bildirdi ki, hazırda burada 82 cins ipəkqurdu yetişdirilir:** "Onlardan 50-si yerli genefond sayılır, 32-si isə xaricdən gətirilənlərdir ki, biz onları həm qoruyub saxlayır, həm də üzərində araşdırmalar aparırıq. Həmçinin "Baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər Dövlət Proqramı"na əsasən biz institutun ərazisində İrandan, Çindən gətirilən və Azərbaycanın yerli genefonduna daxil olan 3 min ədəd tut tingi əkmişik. Burada əsas məqsəd yem bazasının gücləndirilməsidir. Bundan əlavə, müəssisədə quşçuluğun inkişafı istiqamətində də işlər həyata keçirilir".




Jurnalistlər iyulun axırında fəaliyyətə başlayacaq Ucar Pambıq Emalı Zavoduna baş çəkdilər. Zavodun direktoru Həsən Şahverdiyev bildirdi ki, Zavod ildə 40 min ton pambıq emaletmə gücünə malik olacaq. Bundan əlavə, müəssisə daxilində daha iki zavodun - çiyid və yağ zavodunun da tikintisi gedir.

**Sonda təşkil olunan mediaturla bağlı musavat.com-a danışan Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Anar Hüseynov söylədi ki, infoturun keçirilməsində bir neçə məqsəd vardı:** "Əsas məqsəd media nümayəndələrini bölgələrdə yerləşən fərqli təsərrüfat subyektlərinin fəaliyyəti ilə tanış etmək idi. Bu sahələr - tütünçülük, ipəkçilik, pambıqçılıq, heyvandarlıq Azərbaycanda kənd təsərrüfatının inkişafında əsas prioritet götürülən sahələrdir. Digər tərəfdən, Kənd Təsərrüfatı Nazirliyi çoxşaxəli struktura malikdir, bu strukturda müəyyən dəyişikliklər edilib. Bu səbəbdən düşünürdük ki, nazirliyin strukturu, tabeliyindəki qurumların fəaliyyəti barədə media nümayəndələrini məlumatlandırmaq zərurəti var. Yeni media strategiyamıza uyğun olaraq bu cür infoturların təşkilini davam etdirməyi düşünürük. Çünki bu layihə media təmsilçilərinə ölkədə kənd təsərrüfatının vəziyyəti ilə əyani tanış olmaq imkanı verir. Jurnalistlər həm fermer təsərrüfatlarının işi ilə birbaşa sahələrdə tanış olmaq fürsəti əldə edir, onları maraqlandıran suallara cavab tapır, eyni zamanda media təmsilçiləri ilə təsərrüfat subyektləri arasında birbaşa əlaqə yaranır. Kənd təsərrüfatı sektorunda aparılan islahatlar, tətbiq olunan yeniliklər ilk növbədə şəffaflığın təmin olunmasını və ictimaiyyətin daim məlumatlandırılmasını zəruri edir. Bu məsələdə medianın rolu sözsüz ki, olduqca böyükdür, bu baxımdan belə infoturların davam etdirilməsini zəruri sayırıq".

❑ **Əli RAİS,**
**Musavat.com,**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 147 (7036) 10 iyul 2018



# "Dilqəm Əsgərovla girov saxlandığı yerdə görüşmüş 6-7 şəxslə təmasda oldum"

## Əhməd Şahidov: "Noyabrdan sonra məktublar tamam kəsilib, 8 aydır girovlardan heç bir xəbər yoxdur"

**İyulun 11-də Dilqəm Əsgərov və Şahbaz Quliyevin Kəlbəcər rayonunda öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan Silahlı Qüvvələri tərəfindən girov götürülməsindən, Həsən Həsənovun isə qətlə yetirilməsindən 4 il keçir. 4 il öncə doğma rayonları olan Kəlbəcərdə erməni hərbçiləri tərəfindən girov götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyev amansız işgəncələrə məruz qoyulublar. İşğal altındakı Dağlıq Qarabağda Ermənistan və separatçı rejim Dilqəm Əsgərov və Şahbaz Quliyev üzərində qanunsuz "məhkəmə" qurub. "Məhkəmə"nin qərarı ilə Dilqəm Əsgərov ömürlük, Şahbaz Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilmə cəzasına məhkum olunub.**

*Hər iki kəlbəcərli girovun azad edilməsi üçün Azərbaycan dövləti və hüquq müdafiəçiləri artıq 4 ildir iş aparır. Bu işdə xüsusi fəallığı seçilən Azərbaycan Demokratiya və İnsan Hüquqları İnstitutunun rəhbəri Əhməd Şahidovla söhbətləşdik.*

***- Əhməd bəy, 4 ildir Dilqəm Əsgərovu və Şahbaz Quliyevi təəssüf ki, azad edə bilməmişik. Burada Ermənistanın Dağlıq Qarabağ məsələsində, torpaqlarımızı işğal etməsində olduğu kimi, bu məsələdə də beynəlxalq qanunları ayaqlar altına alması, yoxsa başqa digər amillər də rol oynayır? Ümumiyyətlə, kəlbəcərli girovların məsələsi ilə bağlı hansı işlər aparılıb?***

- Biz Dilqəm Əsgərovla Şahbaz Quliyevin girov götürüldüyü, Həsən Həsənovun isə qətlə yetirildiyi haqda ilk məlumat yayılan andan vətəndaş cəmiyyəti və hüquq müdafiəçisi olaraq Azərbaycanda akkreditasiya olunmuş xarici səfirliklərə, beynəlxalq təşkilatların nümayəndəliklərinə müraciətlər ünvanladıq. Xüsusən də ATƏT-də, Avropa Şurasında, BMT-nin Cenevrə ofisində bu məsələ ilə bağlı kommunikasiyalara başladıq. Həmin azərbaycanlı mülki vətəndaşların qeyri-qanuni həbs edilməsi, girov götürülməsi və üzərində qeyri-qanuni məhkəmə prosesinin keçirilməsi ilə bağlı müxtəlif beynəlxalq tədbirlərdə çıxışlarımız oldu. Hər dəfə də BMT-nin İnsan haqlarına dair Cenevrə konvensiyasının və digər beynəlxalq insan haqları qanunlarının kobud surətdə pozulmasını, mülki vətəndaşların öz torpaqlarında qanunsuz saxlanmasını, girov götürülməsini, işgəncələrə məruz qoyulmasını faktlarla sübuta yetirdik. Dilqəm və Şahbazovun azad edilməsinin zəruriliyi ilə bağlı çağırışlarımız oldu. Azərbaycan dövləti də bu istiqamətdə bir sıra addımlar atıb. Ölkə başçısı həm Azərbaycanda, həm də beynəlxalq müstəvidə görüşlərində, beynəlxalq səviyyəli tədbirlərdə mülki azərbaycanlılar olan Dilqəm Əsgərov və Şahbaz Quliyevin Ermənistan tərəfindən girov saxlandığı məsələsini və onların dərhal azad olunmasının gərəkdiyini qaldırıb. Həmçinin Azərbaycanın Xarici İşlər Nazirliyi, Əsir və İtkin düşmüş, Grov Götürülmüş Vətəndaşlar üzrə Dövlət Komissiyası da bu iş üzərində ardıcıl fəaliyyət göstərir. Amma təəssüf ki, bütün bu və digər aparılan işlər hələ də müsbət bir nəticəyə gətirib çıxarmayıb. Ermənistanın beynəlxalq qanunları açıq-aşkar heçə sayması üzündən bu işdə müsbət nəticə əldə edilməyib.

***- Beynəlxalq təşkilatların reaksiyası necədir?***

- Bu işdə yeganə irəliləyiş ondan ibarətdir ki, Dilqəmlə Şahbazın məsələsinin beynəlxalq təşkilatlarda, ATƏT və BMT kimi qurumlarda gündəmdə saxlanmasına nail ola bilmişik, həmçinin Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti, Ermənistanda olan Avropa ölkələrinin səfirlikləri Şuşa həbsxanasında saxlanılan girovlara baş çəkiblər, onların səhhəti ilə maraqlanıblar. Bu da Ermənistan tərəfində müəyyən məsuliyyət hissləri yaradır ki, onların saxlanma şəraiti, qidalanması, həkim müayinəsi ilə bağlı müəyyən addımlar atsınlar. Amma yenə də Dilqəm və Şahbaz Quliyevin səhhətində problemlər var. 2017-ci ilin sentyabrında ATƏT-in Varşavada keçirilən zirvə toplantısında bu məsələni bir daha gündəmə gətirdik. Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov da Varşavada keçirilən zirvə toplantısına bizimlə getmişdi. Sentyabrın 19-da zirvə toplantısında Kürdoğlu Əsgərov çıxış elədi, atası ilə bağlı məlumat verdi. O çıxışa qədər artıq 7 ay idi ki, nə Dilqəmdən, nə Şahbazdan heç bir məlumat yox idi. Azərbaycan tərəfinin birtərəfli çağırışlarına məhəl qoymayan Ermənistan nə girovlardan məktub alınmasına imkan yaradırdı, nə də onlar barədə hər hansı bir məlumat verirdi. Mənim və Kürdoğlunun həmin zirvə toplantısında çıxışımızdan 10 gün sonra-sentyabrın 29-da Qırmızı Xaç Cəmiyyəti Dilqəm Əsgərov və Şahbaz Quliyevdən məktub, fotolar, videolar gətirdi. Təbii ki, həmin məktublar, fotolar və videolar onların ailəsinə təqdim olundu. Bu tendensiya noyabr ayına qədər davam elədi. Noyabr ayına qədər vaxtaşırı məktub gəlirdi.

***- İndi gəlmirmi?***

- Noyabrdan sonra məktublar tamam kəsildi və 8 aydır ki, girovlardan yenə də heç bir xəbər yoxdur. Bu da bizi ciddi narahat edir. Bizdə narahatlıq doğuran daha bir məsələ ondan ibarətdir ki, hər iki girovun səhhətində ciddi problemlər var. Şahbazın ödündə və digər həzm sistemi orqanlarında, Dilqəmin isə ürəyində, beynində ciddi ağrılar var, ayaqlarında ciddi problemlər mövcuddur. Hər dəfə Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri bildirir ki, həm Dilqəm, həm də Şahbaz ailəsinə məktub göndərmək istəmir. Bu isə bizə inandırıcı gəlmir. Hər iki girovun ailələri də 8 aydır onlardan heç bir məktub gətirilməməsindən ciddi narahatdır. Narahatlıqlarını bizimlə hər dəfə görüşdə açıq ifadə edirlər. Ona görə də biz bu vəziyyəti bir daha ciddi şəkildə gündəmə gətirməyə çalışırıq. Mən artıq Avropa Şurası Parlament Assambleyasının İnsan Haqları üzrə ali komissarı xanım Dünya Miyatoviçə müraciət ünvanlamışam. ATƏT üzvü olan ölkələrin bu qurumdakı səfirlərinə müraciətlər ünvanlamışam. Ən azından Ermənistandakı səfirlikləri vasitəsilə rəsmi İrəvana girovlarla bağlı müəyyən təzyiqlər edilməsini xahiş etmişəm. Bu ay Gürcüstanın paytaxtı Tiflisdə ATƏT-in növbəti toplantısı keçiriləcək. Orada Azərbaycandan və Ermənistandan olan vətəndaş cəmiyyəti üzvləri, hüquq müdafiəçiləri də iştirak edəcək. Şəxsən mən də orada iştirak edəcəyəm. Dilqəm Əsgərov və Şahbaz Quliyevdən 8 aydır heç bir məlumat verilməməsi, məktub gəlməməsi və onların qanunsuz girov saxlanması məsələsini qaldıracağıq. Əsas məsələ olaraq yenə də ATƏT-in Varşavada bu ilin sentyabr ayında növbəti zirvə toplantısı keçiriləcək. Həmin zirvə toplantısında da girovların məsələsini qaldırmaq fikrindəyik. Yəni bizim fəaliyyətimiz bu istiqamətlərdir. Bu gün başqa edə biləcəyimiz bir şey qalmayıb. Çünki qarşı tərəf heç bir qanunlara, konvensiyalara məhəl qoymayan işğalçı Ermənistandır. Ermənistan girovlar məsələsinə də bu şəkildə yanaşır-heç bir beynəlxalq hüquqa məhəl qoymur. Beynəlxalq insan haqları təşkilatlarının girovlarla bağlı çağırışlarına əhəmiyyət vermir. Amma bu bizim ümidimizi kəsmir. Biz haqlı işimizə inadla davam edirik, dövlət və vətəndaş cəmiyyəti olaraq fəaliyyətimizi davam etdiririk. Ümid edirik ki, gec-tez Dilqəm Əsgərov və Şahbaz Quliyev azadlıqlarına qovuşacaqlar.

***- Xeyli müddət öncə belə bir məlumat yayılmışdı ki, İrəvan Dilqəm Əsgərov və Şahbaz Quliyevin Ermənistan ərazisində saxlanmadığını, Şuşada saxlandığını bəhanə edərək onlarla bağlı Azərbaycanın "Dağlıq Qarabağ Respublikasına" müraciət etməli olduğunu bildirib. Azərbaycanın isə belə bir addım atmayacağı təbii ki, məlumdur. Sizcə, Ermənistan Dilqəm və Şahbazın girov saxlanmasından bu cür siyasi məqsədinə nail olmaq üçün istifadə etməyə çalışır? Girovların hələ də azad edilməməsinin kökündə həm də bu məsələ daya bilərmi?***



- Azərbaycana belə bir çağırış edilmişdi. Ancaq hər kəsə bəllidir ki, Ermənistanın belə bir çağırışının hüquqi əsası yoxdur. Ermənistan özü də yaxşı bilir ki, Dağlıq Qarabağ Azərbaycan ərazisi kimi dünya tərəfindən tanınır, Dağlıq Qarabağdakı qondarma qurum heç bir ölkə tərəfindən tanınmır, hətta Ermənistanın özü tərəfindən belə tanınmır. Təbii ki, həmin qondarma separatçı qurumda "fəaliyyət" göstərən heç bir "struktur"un rəsmi, hüquqi əsası yoxdur. İkincisi, Ermənistan özü bir dövlət olaraq beynəlxalq təşkilatlarda girovlar məsələsində tərəf olaraq çıxış edir. Biz hər dəfə beynəlxalq təşkilatlarda kəlbəcərli girovlar məsələsini qaldırdıqda bizə qarşı tərəf kimi Ermənistan Respublikasının rəsmi nümayəndəsi, səfiri cavab verir. Bu, artıq o deməkdir ki, Ermənistan girovlar məsələsində məsuliyyətin onun üzərində olduğunu qəbul edir. Yəni ittiham ünvanı Ermənistandır və müraciətlər də ona edilir və edilməlidir. Sadəcə, Ermənistan qəsdən heç bir hüquqi əsası olmayan məsələni bir ara ortaya atmaqla siyasi məqsədlərinin olduğunu ortaya qoyurdu. Lakin istəyinə nail ola bilmədi. Dilqəm Əsgərovun və Şahbaz Quliyevin girov götürülməsi, girov saxlanmasının məsuliyyəti birbaşa Ermənistan Respublikasının üzərindədir.

***- Ermənistan beynəlxalq təşkilatlara belə bir rəyi sırımağa çalışırdı ki, Dilqəm Əsgərov və Şahbaz Quliyev mülki vətəndaş deyillər, diversantdırlar. İşğalçı ölkənin bu təbliğatının heçə çıxdığını və heç kim tərəfindən ciddi qəbul edilmədiyini söyləmək olarmı?***

- Ermənistan ilk vaxtlar buna çalışdı. Lakin təbii ki, heç bir əsası olmayan uydurma rəyi heç kimə qəbul etdirə bilmədilər. Çünki hər kəsə bəllidir ki, Dilqəm Əsgərovla Şahbaz Quliyev Kəlbəcər rayonundandır. Onlar və dostları Həsən Həsənov erməni işğalı altındakı Kəlbəcər rayonunun Şapılar kəndindəki qəbiristanlıqda uyuyan doğmalarının məzarını ziyarət etmək üçün gediblər. Dilqəm Əsgərovun anasının məzarının yanında çəkdirdiyi fotosu da var. İşğal altındakı əraziyə gedən adamın isə üzərində gündəlik zəruri istifadə üçün hansısa kəsici alətin, binoklin, fotoapartın olması təbiidir. Bu normal haldır. Odur ki, heç bir diversiya qrupundan söhbət gedə bilməz. Ermənistan bu əsassız rəyi heç kimə qəbul etdirə bilməzdi və etdirə də bilmədi.

***- Hüquq müdafiə təşkilatlarının, həmçinin sizin Qırmızı Xaç Cəmiyyətinə kəlbəcərli girovlarla görüşməsinə, yaxud ailələrinin görüşməsinə şərait yaradılması üçün müraciət etmək imkanınız var? Belə bir şəraitin yaradılması mümkün deyil?***

- Mən 2015-ci ildə Cenevrədə Qırmızı Xaç Cəmiyyətinin baş mənzil qərargahında olarkən məhz Dilqəm Əsgərovla girov saxlandığı yerdə görüşmüş 6-7 şəxslə görüşdüm. Sizin dediyiniz məsələni mən orada qaldırdım. Ailə üzvlərindən kimlərinsə və ya bizim girovlarla görüşümüzün təşkil edilməsini istədim. Onlar dedilər ki, bu, Qırmızı Xaç Cəmiyyətinin mandatına uyğun məsələ deyil, qanuna görə, bu təşkilat münaqişə tərəfləri arasında bu şəkildə vasitəçilik rolu oynaya və tərəf tuta bilməzlər. Girovluqda və ya həbsdə saxlanan şəxslə Qırmızı Xaç Cəmiyyətinin əməkdaşları görüşə bilər. İndi də biz belə bir müraciəti etsək də yenə deyəcəklər ki, bu məsələ Qırmızı Xaçın mandatına daxil deyil. Bizim və ya kəlbəcərli girovların ailə üzvlərinin "Dağlıq Qarabağ"da görüş şəraiti yaradılması üçün müraciəti isə milli maraqlar baxımından mümkün deyil. İnanın, hətta nəzəri baxımdan hesab etsək ki, belə bir müraciət olunsa da onlar Dilqəmlə və Şahbazla görüşə imkan yaratmazlar. Lakin "Azərbaycandan Dağlıq Qarabağ Respublikasına müraciət edildi" tipində şou düzənləyərlər.

***- Bir çox insanlar, həmçinin keçmiş nazirlər, hərbçilər var ki, Dilqəmlə Şahbazın azad edilməsinin yeganə yolunun işğal altındakı ərazidə əməliyyat keçirib bir neçə yüksək çinli erməni zabitini ələ keçirərək girovlarla dəyişmək olduğunu bildiriblər. Bu variant mümkünmü?***

- Hüquq müdafiəçisi kimi bu suala cavab verməkdə çətinlik çəkirəm. Mən bir hüquq müdafiəçisi kimi beynəlxalq hüquq normalarının verdiyi imkanlar daxilində düşünmək və iş aparmağın tərəfdarı olmuşam. Amma bir vətəndaş kimi, girovluqda saxlanan qardaşlarımızın taleyini, onların ailələrinin mənəvi əziyyətlərinə son verilməsinin vacibliyini düşünən insan kimi qeyd olunan varianta normal yanaşmışam.

Ermənistan tərəfi kəlbəcərli girovları hesab edirəm ki, hansısa sıravi bir-iki əsgərlə deyil, daha böyük çəkili qiymətli nələrləsə dəyişə bilərlər. Bu baxımdan yaxın gələcəkdə daha yüksək rütbəli adamları ələ keçirilsə bəlkə dəyişmək məsələsi gündəmə gələ bilər.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Azərbaycanın dəmir yolları güvənlidirmi...

## Sevinc Qadirova: "Dəmir yollarında yolların və texniki vasitələrin sazlığına daimi nəzarət olunur"



**Türkiyənin Ədirnə vilayətinin Uzunköprü rayonundan İstanbulun Halkalı stansiyasına hərəkət edən sərnişin qatarı yerli vaxtla saat 17:00 radələrində Tekirdağ vilayətinin Çorlu və Muratlı rayonları arasında relsdən çıxaraq aşıb. Hadisə zamanı qatarda 362 sərnişin və 6 ekipaj üzvü olub.**

5 vaqonun aşması nəticəsində 24 nəfər ölüb, 318 yaralı xəstəxanalara aparılıb, onlardan 194-ü ilkin tibbi yardımdan sonra evə buraxılıb. Hadisənin səbəbi kimi leysan yağışlarının relslərin altındakı torpaq qatını yuması göstərilir.

Bu hadisədən sonra insanlarımızı bir məsələ düşündürür. Təməli 1878-ci ildə qoyulmuş Azərbaycanda dəmir yollarının vəziyyəti necədir? Analoji hadisə bizim dəmir yollarında da baş verə bilərmi?

**Bu və digər suallarla "Azərbaycan Dəmir Yolları" QSC-yə müraciət etdik. Qurumun İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Sevinc Qədirova bildirir ki, son illər bu qurumun tarixində yeni era başlayıb, müasir standartlara cavab verən texnologiyalar tətbiq olunur:** "Enerji təchizatının sabit cərəyandan dəyişən cərəyana keçilməsi, işarəvermə və rabitə sisteminin yeniləşdirilməsi üzrə avadanlıqların alınması, yol təsərrüfatının sağlamlaşdırılması, lokomotiv və vaqon parklarının yenilənməsi və s. sahələrin müasir tələblər səviyyəsinə çatdırılması üzrə bir sıra mühüm tədbirlər həyata keçirilir. "Azərbaycan Dəmir Yolları" Avropa ilə Asiyanın kəsişməsində, o cümlədən dəmir yolu ilə bağlı beynəlxalq layihələrin reallaşması prosesində aktiv iştirak edir. Habelə "Azərbaycan Dəmir Yolları" "Şimal-Cənub", Cənub-Qərb nəqliyyat dəhlizlərinin reallaşması prosesində, Bakı-Tiflis-Qars dəmir yolu bağlantısının fəaliyyətinin genişləndirilməsində aktiv rol oynayır. Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Bakı şəhərətrafı dəmir yolu xəttinin layihə-smeta sənədlərinin hazırlanması, əsaslı təmiri və tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, Abşeron yarımadasında mövcud dəmir yolu xətlərinin yenidən qurulması və dəmir yolu şəbəkəsinin təkmilləşdirilməsi, mövcud dəmir yolu xətlərinin reabilitasiyası və bərpası, elektrik təchizatı, rabitə və işarəvermə şəbəkəsinin əsaslı təmiri, yol kənarlarının mühafizə çəpəri ilə bağlanması, bəzi dəmir yolu keçidlərinin müxtəlif səviyyəli keçidlərlə əvəzlənməsi, stansiya binalarının yenidən qurulması və digər işlərin aparılması nəzərdə tutulur. Hazırda apaşdırma, layihələndirmə işləri aparılır".

**S.Qədirovanın sözlərinə görə, "Azərbaycan Dəmir Yolları"nda yolların və texniki vasitələrin sazlığına daimi nəzarət olunur:** "Dəmir yollarının cari saxlanışına dair təlimatların tələblərinə müvafiq olaraq aidiyyəti dəmir yolu qurumları tərəfindən yolların və hərəkət tərkiblərinin saz vəziyyətdə saxlanılması üçün tədbirlər mütəmadi olaraq icra olunur. Əlavə olaraq yolölçən və defektoskop vaqonları ilə yol mütəmadi olaraq yoxlanılaraq, yolun ölçüləri nəzarətdə saxlanılır və yaranmış kənara çıxmaların təcili aradan qaldırılması üçün tələb olunan tədbirlər görülür. Dəmir yolu çoxşaxəli təsərrüfatdır. Hərəkətin təhlükəsizliyi üzrə texniki müfəttişliyin əməkdaşları və şöbələrin müvafiq işçiləri bu işə nəzarət etməklə yanaşı maarifləndirmə işləri də aparırlar. Bütün bu işlər baş verə biləcək hər hansı hadisənin qarşısını almaq üçündür. Dəmir yolunun ən təhlükəli yeri 2-ci blok-post - Böyük Şor mənzilində (el arasında Şanxay adlanan yerdə) ərazidədir. Burada dəmir yoluna yaxın ərazidə qeyri-qanuni tikililər çoxdur. Dəmir yolunun mühafizə zolağında 476 qeyri-qanuni tikilinin sökülməsi nəzərdə tutulur. Əksər tikililər sökülüb. Bir neçəsinin sökülməsü davam edir. Hazırda sökülmə materialları daşınır, ərazi təmizlənir. Həmin ərazidə mühafizə zolağı çəkiləcək, istinad divarları tikiləcək. Qatarların təhlükəsiz hərəkətini təmin etmək üçün bütün tədbirlər görüləcək".

❑ **Ləman MUSTAFAQIZI,**
**Musavat.com**

**Azərbaycanın enerji təchizatı sistemində baş verən ağır qəzadan bir həftə ötür. Bu müddət ərzində ölkə ərazisində enerji təchizatı tam bərpa edilib. Buna baxmayaraq, hələ də insanlarda qəzanın təkrarlanacağı həyəcanı davam edir. İkinci açılma zamanı metro tunellərində qalan bir çoxları hələ də metroya minməkdən ehtiyat edir. Məlumdur ki, qəza baş verdikdən sonra Azərbaycan Gürcüstan və Rusiyadan enerji idxal etməyə məcbur olub.**



# Enerji qəzası baş verən İES-dən xəbər yoxdur

## Dövlət Komissiyası araşdırma aparır

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətindən bir neçə gün əvvəl verilən məlumata görə, Gürcüstan enerji sistemindən elektrik enerjisinin idxalı dayandırılıb: "Rusiya enerji sistemi ilə paralel iş rejimində razılaşdırılmış qrafik əsasında elektrik enerjisinin ötürülməsi həyata keçirilir".

Məlumata əsasən, qəza baş verən "Azərbaycan" İES-in 330 kV-luq yarımstansiyasında yanğın zamanı zədələnmiş avadanlıqların və sıradan çıxmış idarəetmə və rabitə kabellərinin bərpası üzrə müvafiq texniki tədbirlər davam etdirilir.

Onu da qeyd edək ki, enerji qəzası ilə bağlı ölkə prezidenti yanında keçirilən müşavirədə fövqəladə hallar naziri Kəmaləddin Heydərov prezidentə müraciət edərək qəzanın baş verdiyi İES-də audit yoxlamasının həyata keçirilməsini təklif edib. O bildirib ki, elektrik xətlərində, digər yerlərdə hər hansı bir qəzanın baş verməsi bununla məşğul olan müvafiq qurumlar arasında rabitənin və operativ əlaqənin olmamasının nəticəsidir. Nazirin dediyinə görə, bu stansiya fiziki və mənəvi cəhətdən köhnədir: "Vəsait ayırıb onu təmir etməzdən əvvəl, əgər imkan varsa tapşırığınıza əsasən bu sahədə beynəlxalq təcrübəsi olan qurum onu əvvəlcə audit etməlidir ki, hansı vəziyyətdədir. Ondan sonra digər şirkətlər onun necə qurulmasını və ümumiyyətlə, ölkə üzrə bu sistemin bir-birinə maneçilik törətmədən, əksinə, bir-birinə dəstək verərək işləməsi məsələsini ortaya qoymalıdır ki, nəinki hər hansı bir yarımstansiyada, hər hansı istilik elektrik və digər elektrik stansiyalarında qəza baş verdikdə ölkədə problem yaşanmasın".

**Prezident isə audit təklifini müsbət qarşılayıb:** "Hesab edirəm ki, bu, çox vacibdir. Həm Mingəçevirdəki İstilik Elektrik Stansiyasının tam təftişi və auditi aparılmalıdır. Eyni zamanda ölkəmizin bütün enerji sisteminin beynəlxalq, aparıcı, bu sahədə peşəkarlıqla seçilən qurumlar tərəfindən təhlili aparılmalıdır və təkliflər verilməlidir. Bu işlərdə günahı olan bütün insanlar müəyyən edilməlidir və onlar cəzalandırılmalıdır".

Bu isə o deməkdir ki, qəzanın baş verdiyi enerji bloklarında kosmetik və başdansovdi təmir işləri həyata keçirməklə iş bitməyəcək.

**P.S.** *"Azərbaycan" İES-də qəzadan sonra görülən işlərlə bağlı "Azərenerji" ASC-dən məlumat əldə etmək istəsək də, qurumun mətbuat xidmətinin rəhbəri Yəhya Babanlı bildirdi ki, dövlət komissiyası araşdırma apardığına görə məlumat verə bilməyəcək.*

❑ **DÜNYA,**
**"Yeni Müsavat"**

# Dəhşətli istilər bitdimi...

## Gülşad Məmmədova: "İyulun 13-dək ölkədə mülayim hava şəraiti müşahidə olunacaq"

**İyulun 4-dən 7-nə qədər ölkə ərazisində hava şəraiti kəskin istilərlə müşahidə edildi. Hətta hava şəraiti ilə bağlı baş nazir Novruz Məmmədov sərəncam imzalayaraq bildirmişdi ki, hava şəraitinin kəskin isti keçməsi ilə əlaqədar dövlət hakimiyyəti orqanları, fiziki və hüquqi şəxslərin təsis etdikləri mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq respublikanın ərazisində yerləşən bütün müəssisə, idarə və təşkilatların, eləcə də müəssisə yaradılmadan işçilərlə əmək müqaviləsi bağlanmış iş yerlərinin rəhbərlərinə tapşırılsın ki, Əmək Məcəlləsinin 233-cü maddəsinin 2-ci hissəsinin və həmin Məcəlləyə 2 nömrəli əlavənin 1-ci hissəsinin tələblərinə ciddi riayət olunmasını tələb etsinlər.**




Belə ki, qanuna əsasən havanın temperaturu 41 dərəcə selsidən çox olan hava şəraitində açıq havada və sərinləşdirici qurğular olmayan örtülü binalarda, otaqlarda və digər iş yerlərində bütün növ işlərin görülməsi dayandırılır və işçilərə sərinləşmək üçün imkan yaradılmaqla fasilələr verilir.

Lakin məlum olduğu kimi, iyulun 7-dən başlayaraq ölkədə havanın temperaturu bir qədər aşağı düşdü, 30-35 dərəcəyədək endi.

Bəs dəhşətli istilər bitdimi, yoxsa geri dönəcək?

**Mövzu ilə bağlı Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova "Yeni Müsavat"a danışıb:**

"Bildiyiniz kimi ayın əvvəlində ölkə ərazisində temperatur 43-44 dərəcəyədək qalxdı. Lakin iyulun 6-7dən başlayaraq temperaturun aşağı enməsi müşahidə olundu. İyulun 9-13-dək ölkədə mülayim hava şəraiti müşahidə olunacaq. Bakıda isə 33-38 dərəcə isti olacağı gözlənilir.

Ayın 10-na olan proqnoza əsasən isə Abşeron yarımadasında zəif küləklərin üstünlüyü, bəzi saatlarda durğun hava şəraiti və isti temperatur diskomfortu gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişsizdir. Naxçıvan Muxtar Respublikasında hava günəşli olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 21-26°, gündüz 35-40°, bəzi yerlərdə isə 42° isti olacağı bildirilir. Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 27-32° isti olacağı gözlənilir. Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava günəşli olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 22-27°, gündüz 33-38° isti olacaq. Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 32-37° isti, dağlarda gecə 15-20°, gündüz 26-31° isti olacağı ehtimal edilir. Mərkəzi Aran - Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava günəşli olacaq. Şərq küləyinin əsəcəyi gözlənilir. Havanın temperaturunun gecə 22-26°, gündüz 36-41° isti olacağı proqnozlaşdırılır. Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava günəşli olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 24-26°, gündüz 34-37° isti, dağlarda gecə 15-20°, gündüz 29-34° isti olacağı gözlənilir".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 147 (7036) 10 iyul 2018

**Uzun fasilədən sonra Qarabağ danışıqlarının "ölü" nöqtədən tərpədilməsi istiqamətində cəhdlər göstərilməkdədir. Yay dövründə bölgədə dağıdıcı müharibənin olacağı ilə bağlı ABŞ Mərkəzi Kəşfiyyatının hələ aylar öncə etdiyi xəbərdarlıqlardan həyəcanlanan və təşvişlə təmas xəttində baş verənləri izləyən Ermənistan hakimiyyəti danışıqların bərpasını sevincək qarşılayıb, bunu erməni mediasında tirajlanan xəbərlər də təsdiqləyir.**






# "Bakı artıq İrəvana ultimatum haqqında düşünməlidir"

## Qarabağ danışıqlarının növbəti raunduna start verilir, ancaq müharibə təhlükəsi aradan qalxmayıb; Ermənistan prezidenti "top"u baş nazirin üzərinə atır, baş nazir isə... Rəsmi Bakı növbəti çağırış-xəbərdarlığını etdi

Fakt budur ki, bu ilin may ayında ordumuzun Naxçıvan istiqamətində həyata keçirdiyi əks əməliyyat nəticəsində böyük bir ərazinin düşmən tapdağından azad edilməsi Ermənistanda şok effekti yaradıb və bu panik əhval hələ də hökm sürməkdədir. İş o yerə çatıb ki, erməni katolikosu Qaregin özü həmin istiqamətdə xidmət keçən erməni hərbçilərlə görüşüb onlar üçün dua edib. Ermənistan prezidenti Armen Sərkisyanın isə danışıqların alternativinin olmadığını, üstəlik, budəfəki savaşın hər iki ölkə üçün dağıdıcı olacağını deməsi İrəvandakı narahatlıqların göstəricisidir. Ermənistan yaxşı anlayır ki, Azərbaycan ordusu ən müasir silahları, raket komplekslərini, sadəcə, paradda nümayiş, yaxud hərbi təlimlərdə sınaqdan keçirmək üçün almayıb. Odur ki, hər bir danışıq cəhdinə sevincək razılığını verir.

İyulun 11-də Brüsseldə keçiriləcək NATO-nun zirvə toplantısı çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında görüş olacaq. APA-nın xəbərinə görə, bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov deyib. Nazir bildirib ki, münaqişənin həli ilə bağlı ümid həmişə var. Qeyd edək ki, bu, E. Məmmədyarovun Ermənistanın yeni xarici işlər naziri Zöhrab Mnatsakanyanla ilk görüşü olacaq.

**Azərbaycanlı nazir görüşdən öncə İrəvana mesajını da çatdırıb. "Ermənistan rəhbərliyi başa düşməlidir ki, münaqişənin həll edilməsi onların ən çox ehtiyac duyduğu regional əməkdaşlıq imkanları yarada və regionda davamlı sülhü təmin edə bilər". E.Məmmədyarov "AzərTAc" agentliyinə müsahibəsində bunu bildirib. Nazir deyib:** "Əgər onlar da Sərkisyan rejiminin yolu ilə gedərlərsə, onları da eyni aqibət gözləyir. Danışıqlar prosesində Azərbaycanın mövqeyi aydın, birmənalı və qətidir. Bu, ilk növbədə beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanır. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin formatı və gündəliyi aydındır. Münaqişənin mərhələli həlli prosesinin yol xəritəsini də hər kəs çox yaxşı bilir. Münaqişənin həllində irəliləyiş əldə etmək üçün ilk növbədə, işğal faktı aradan qaldırılmalı və BMT Təhlükəsizlik Şurasının qətnamələrində tələb olunduğu kimi, Ermənistan qoşunları Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmalıdır. İyulun 11-də Brüsseldə ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü keçiriləcək. Seçim Ermənistan tərəfdədir. Qarşıdan gələn görüş göstərəcək ki, Ermənistan, nəhayət, münaqişənin həllində konstruktiv rol oynamağa hazırdır, ya yox".

Ermənistan hakimiyyəti isə həm savaşdan qaçmaq üçün yollar axtarışındadır, həm də özünü müharibəyə hazır olan tərəf kimi göstərməyə, iqtidarının ömrünü maksimum uzatmağa çalışır. Hökumət başına gəldiyi ilk günlərdən ziddiyyətli Qarabağ açıqlamaları ilə özünü gülünc hala salan, hətta Azərbaycanın qarşısında şərtlər irəli sürməyə çalışan N.Paşinyanın bu ərəfədə oğlu Aşot Paşinyanı hərbi xidmətə göndərməsi də diqqət çəkir. Paşinyan bununla Ermənistanda fərarilik etmiş 15 min gəncə stimul verib, onları ölkəyə qayıtmağa, orduya getməyə həvəsləndirmək istəyir. Digər tərəfdən, o, bu yolla hərbi variantı da kənara qoymadığını nümayiş etdirmək istəyir. Bir müddət öncə Paşinyan ordunun bütün variantlara hazır olmağa çağırmışdı. Aşot Paşinyan hərbi xidmətə getmək üçün 9 iyulda, səhər saatlarında hərbi komissarlığa gəlib (axar.az). Onunla birlikdə komissarlıqda dayısı və əmisi, eləcə də anası Anna Akopyan da olub. Qeyd edək ki, hələlik Paşinyanın harada xidmət edəcəyi bilinmir. Ancaq o, bir müddət əvvəl Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ ərazisində xidmət keçmək üçün Ermənistan Müdafiə Nazirliyinə müraciət edib. Güman olunur ki, N.Paşinyan bu yolla həm də xalqın dəstəyini almaq, ona qarşı olan qüvvələri zərərsizləşdirmək istəyir. Ancaq fakt budur ki, "müharibə partiyası"nı təmsil edən R.Köçəryan, yaxud S.Sərkisyandan fərqli olaraq, N.Paşinyan heç hərbi xidmətdə də olmayıb, həmçinin onun Qarabağ müharibəsinə heç bir aidiyyəti yoxdur. Bu mənada onun oğlunu cəbhəyə göndərməklə özünü sığortalamağa çalışdığını da söyləmək olar. Ancaq bir sıra ekspertlər mülki şəxs olan, hərbidən anlayışı olmayan N.Paşinyanın başında dayandığı Ermənistan ordusunun Azərbaycanla savaşda məğlubiyyətinin qaçılmaz olacağına əmindirlər.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, mülki şəxs olan Nikol Paşinyan üçün həm orduya, həm də Qarabağdakı separatçılara başçılıq etmək çətindir:** "Ondan əvvəlki prezidentlər - Robert Köçəryan və Serj Sərkisyan separatçılığa başlayan və işğalçı ordunun formalaşdırılmasında birbaşa rol oynayan şəxslər idi. Ona görə həm ordu generalları, həm də Qarabağdakı separatçılar hər ikisinə itaət edirdilər. Nikol Paşinyan isə onların hamısı üçün yaddır. Doğrudur, hazırda Qarabağdakı separatçılar və ordu generalları Paşinyana problem yaratmırlar və görüntü bundan ibarətdir ki, vəziyyət stabildir. Ancaq bu, yanlış görüntüdür. Məsələn, Ermənistan ordusu Naxçıvanda illərdir nəzarət etdiyi ərazini itirdi. Azərbaycan ordusu uğurlu hərbi əməliyyat keçirərək 11 min hektar ərazini işğaldan azad etdi. Nikol Paşinyan bu haqda bir kəlmə də danışmadı. Məncə, bu hal Ermənistan ordusundakı bir qrup generalın və Qarabağdakı separatçıların xoşuna gəlməyib. Çünki Qarabağdakı separatçılar yaxşı anlayırlar ki, Azərbaycan ordusunun Naxçıvandakı uğurunun Qarabağa inikas olunması ehtimalı yüksəkdir".

**Ermənistan prezidenti Armen Sərkisyanın son açıqlamaları da diqqət çəkir.** "Dağlıq Qarabağ konfliktinin güc yolu ilə həlli variantları qəbuledilməzdir". Musavat.com-un "Sputnik-Armeniya"ya istinadən verdiyi məlumata görə, bu barədə Ermənistan prezidenti İrəvanda "Demokratiya, təhlükəsizlik və xarici siyasət" mövzusunda keçirilən üçüncü gənclər forumunda çıxışı zamanı bildirib. "İstənilən hərbi həll yolu hamı üçün - "Artsax" (işğal altındakı Dağlıq Qarabağ - red.), Ermənistan və Azərbaycan üçün fəlakətli olacaq. Ona görə ki, müharibə dağıdıcı olacaq", - deyə o qeyd edib. Erməni prezidentin sözlərinə görə, müharibənin nəticələri bütövlükdə region üçün fəlakətli olacaq və buna şübhə etməyə dəyməz. Ona görə də onun fikrincə, yeganə məqbul yol sülh danışıqlarıdır. Sərkisyan çıxışında daha sonra separatçı rejimin vaxtilə danışıqlar masası arxasında olmasını yada salaraq deyib: "Lakin ondan sonra Ermənistanın iki prezidenti təkcə Ermənistanın deyil, Dağlıq Qarabağın da mövqeyini ifadə edirdilər. Bu gün baş nazir danışıq aparandır, baş nazir və xarici işlər naziri danışıqlar siyasətini formalaşdırır. Bununla belə, mən öz çoxillik təcrübəmdən istifadə edib danışıqlar prosesinə kömək edə bilərəm".

E.Şahinoğlunun sözlərinə görə, Ermənistan rəsmiləri də artıq müharibənin qaçılmaz olduğunu etiraf edirlər: "Təsadüfi deyil ki, Ermənistan prezidenti Armen Sərkisyan deyib ki, müharibə hamı üçün dağıdıcı olacaq. Yaxşı ki, hələ bunu anlayır. Buna baxmayaraq, Armen Sərkisyan İlham Əliyevlə görüşə hazır deyil. O, Azərbaycan prezidenti ilə Nikol Paşinyanın görüşüb müzakirə aparmasının vacibliyini bildirib. Sərkisyan baş naziri ona görə qabağa verir ki, Ermənistanda konstitusiya dəyişikliyindən sonra əsas səlahiyyət sahibi prezident deyil, baş nazirdir. Mümkündür ki, yaxın zamanda Kreml Azərbaycan prezidenti ilə Ermənistanın baş nazirini görüşdürməyə çalışsın. Bu, payız aylarında baş tuta bilər. Unutmayaq ki, avqustun 30-da İlham Əliyev Moskvada rusiyalı həmkarı Vladimir Putinlə görüşəcək. Nikol Paşinyanı dinləməkdə qəbahət görmürəm. Ancaq elə birinci görüşdəcə o, Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasını bölgənin statusu ilə əlaqələndirərsə, onunla növbəti görüşə ehtiyac qalmayacaq. Ümumiyyətlə, diplomatiyanın arxa plana keçdiyi və ordunun yeni strateji hədəfləri olduğu halda qarşı tərəflə mənasız görüşlərə ehtiyac yoxdur".

Bəs XİN başçılarının 11 iyuldakı görüşündən nə gözləmək olar?

**Politoloq bildirdi ki, Brüssel təmasından ciddi gözlənti yoxdur:** "Ümumiyyətlə, rəsmi Bakı artıq İrəvana ultimatum haqqında düşünməlidir. Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmayana qədər mənasız görüşlərdən imtina etmək haqqında düşünmək lazımdır. Bu beynəlxalq aləmə də xəbərdarlıq mesajı olar ki, Azərbaycan əbədiyyətə qədər işğala dözməyəcək".

**Ermənistan prezidenti A.Sərkisyan danışıqları N.Paşinyanın aparmasını istəyir. Ancaq erməni baş nazirin danışıqlara Qarabağ separatçılarını da qoşmaq niyyəti sözsüz ki, iflasa uğrayacaq. Elə rəsmi Bakının növbəti bəyanatı da bundan xəbər verir. "Dağlıq Qarabağ" münaqişəsi ilə bağlı danışıqlar prosesi mövcud format əsasında davam etdirilməlidir". Bunu Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.**

Yeri gəlmişkən, Berlində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (ATƏT PA) siyasi məsələlər və təhlükəsizlik üzrə ümumi komitəsinin iclası keçirilib. İclasın işində Azərbaycan Respublikası Milli Məclisinin sədr müavini, ölkəmizin ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Bahar Muradovanın başçılıq etdiyi nümayəndə heyəti iştirak edib.

ATƏT PA-nın vitse-prezidenti, Azərbaycan Milli Məclisinin deputatı Azay Quliyev öz nitqində həmkarlarını regional təhlükəsizlik məsələlərində etimadın möhkəmləndirilməsi üzrə dialoqu intensivləşdirməyə çağırıb. Deputat Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni təlimlərini və Ermənistanın bu ərazilərdə öz hərbi cəbbəxanasını, o cümlədən 45 minlik işğalçı hərbi bölməsini beynəlxalq monitorinqdən gizlətməsi barədə müəyyən edilmiş faktları xatırladıb. "Bu, regional təhlükəsizliyə ciddi təhdiddir", - deyə Azay Quliyev vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 147 (7036) 10 iyul 2018



# Xaricdən mobil telefon gətirməyə qoyulan yasağın səbəbi

## Ekspert: "Atılan addımlar ölkədə mobil telefonun bahalaşmasına səbəb olacaq"

**Son zamanlar Azərbaycanda internet saytlarında, sosial şəbəkələrdə mağazalardan daha ucuz qiymətə mobil telefonlar satılır. Bu mobil telefonlar mağazada satılandan təxminən 100 manat ucuz olur.**

Lakin həmin telefonlarda hər hansı bir problem yarandığı zaman alıcı çətin vəziyyətdə qalır. Çünki bu mobil telefonlara əksər hallarda zəmanət verilmir. Alıcı internetdə elanı görüb telefon satıcısı ilə əlaqə saxladıqdan sonra tərəflər şəhərdə müəyyən etdikləri yerdə görüşürlər və alıcı nağd formada pulunu verib, telefonu alır. Alıcı telefonu aldıqdan sonra hər hansı bir poçta gedib, 5 manat məbləğində rüsum ödəməklə "İMEA" kodunu qeydiyyata aldırır. Bundan sonra həmin mobil cihazı ölkə ərazisində işlədə bilir.

Bu günlərdə Dövlət Gömrük Komitəsi məsələ ilə bağlı məlumat yayaraq bildirdi ki, komitə tərəfindən xarici ölkələrdən sifariş edilən mobil telefonlarla bağlı aparılan araşdırma nəticəsində mövcud gömrük və vergi qanunvericiliyinin ciddi şəkildə pozulması halları müəyyən edilib.

Qeyd edilib ki, asan yolla qazanc əldə etmək istəyən bəzi şəxslər xarici ölkələrdə təsis etdikləri onlayn ticarət portalları vasitəsilə Azərbaycan Respublikası vətəndaşlarının adına mobil telefonlar göndərir. Ölkə ərazisinə gətirilən həmin telefonların daha sonra topdan və ya pərakəndə satışını təşkil edirlər:

"Aparılan araşdırma zamanı o da müəyyən edilib ki, bir çox hallarda sənədlərdə adıçəkilən şəxslər faktiki olaraq sifarişlərdən xəbərsizdir.

Üstəlik, gömrük orqanlarına təqdim olunan bəyannamələrdəki rəqəmlərin sifarişçinin bank hesabındakı rəqəmlərdən dəfələrlə aşağı olduğu aşkar edilib ki, bunun da məqsədi gömrük vergi və rüsumlarından yayınmaqdır.

Digər tərəfdən, gömrük orqanına təqdim olunan bəyannamələrdə malların tərkibi də düzgün göstərilmir.

Qeyd edək ki, son bir ayda poçt göndərişləri vasitəsilə ölkə ərazisinə 30 minə qədər mobil telefon gətirilib ki, bunun da 25 mini Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərindən göndərilib.

Komitənin məlumatında qeyd edilib ki, hazırda gömrük orqanları tərəfindən aparılan araşdırmalar davam etdirilir və araşdırmaların sonunda gömrük qanunvericiliyinin tələblərini kobud surətdə pozan hüquqi və fiziki şəxslərin məsuliyyətə cəlb edilməsi ilə bağlı aidiyyəti dövlət qurumlarına müraciət olunacaq.

**İqtisadçı Natiq Cəfərli "Yeni Müsavat"a açıqlamasında bildirib ki, bu kimi hallar ölkədə mobil telefonların qiymətinin bahalaşmasına yol aça bilər:**

"Azərbaycanda telefon istehsalı yoxdur ki, bazara bu qədər həssas yanaşıb daxili bazarı qorumağa çalışırlar. Hər hansı bir insan öz adına və ya başqasının adına bir-iki telefon gətirirsə, bu, Azərbaycan iqtisadiyyatına nə qədər ziyan vura bilər ki? Əgər ölkədə telefon istehsalı olsaydı, yerli istehsalçını dəstəkləmək, kömək olmaq üçün belə addımı atmaq olardı. Dünyada nə qədər bəyənilməsə də Trampın gömrük rüsumlarının qaldırılması ilə bağlı atdığı addım daxili istehsalçının qorunmasına hesablanıb. Bu, onun bəyanatında da qeyd edilib. Yəni qloballaşma dövründə belə bir addımın qeyri-rasional olduğunu qəbul etsəm də, hər halda, məntiqi var. Azərbaycanda hansı telefon istehsalçısı var ki, Gömrük Komitəsi onu qorumaq üçün belə bir əziyyət çəkir. Necə müəyyənləşdirəcək ki, kimlər bunu satış, kimlər isə şəxsi istifadə üçün sifariş verib. Burada bir çox suallar çıxır. Ancaq məlum olan budur ki, Gömrük Komitəsi gömrüyün fəlsəfəsini bu günə qədər də çözə bilməyib. Ölkəyə gətirilən telefonların hamısını bu cür qaydada gömrük rüsumuna cəlb etsələr, ölkədə telefonun qiyməti bahalaşacaq. Gömrük və vergi rüsumu artımının son ödəyicisi vətəndaşdır. Çünki heç bir iş adamı öz ziyanına satış həyata keçirmir. Nə qədər çox xərci çıxırsa, o qədər də malın üzərinə pul qoyur. Nəticədə vətəndaş xərcə düşür. Bu baxımdan atılan addımların məntiqi aydın deyil".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# Qum şəhərinin hekayəsi

## Yunis Səfərovu "yetişdirən" məkanın İslam tarixindəki yeri

**Gəncə İcra Hakimiyyəti başçısına qəsd ölkə gündəminin baş mövzusu olmaqda davam edir. Başçıya güllə atan Yunis Səfərovla bağlı yayılan rəsmi məlumatda maraqlı bir detal diqqəti cəlb edirdi.**



Məlumatda qeyd olunur ki, Rusiya Federasiyasının vətəndaşı olan Yunis Səfərov 2016-cı ildə İran İslam Respublikasına gedərək 8 ay Qum şəhərində yaşamış və bu müddət ərzində Azərbaycan vətəndaşı olan Rasim Əsədovla birgə Suriya Ərəb Respublikasının ərazisində olan silahlı birləşmələrin tərkibində döyüş təlimi keçmişdir.

Məlumatda adıçəkilən şəhər həm də İranın, hətta müsəlman aləminin ən böyük dini mərkəzlərindən biridir. Qum adı həm də bugünkü İran dövləti, daha dəqiqi, İslam Respublikası quruluşu ilə sinonim kimi səslənir. Bəzi media mərkəzlərində isə həm də dünyaya islam inqilabı ideologiyası ixrac edən qaranlıq mərkəz kimi təqdim olunur. Bəs əslində Qum necə bir şəhərdir? İslam tarixində və dində bu şəhərin yeri necədir?

Qum şəhəri İranın mərkəzində, paytaxt Tehrandan 130-150 km cənubda yerləşən 1 milyondan bir qədər çox əhalisi olan şəhərdir. Eyni zamanda Qum şəhərinin yerləşdiyi bölgə vilayət, yəni ostandır. Qum şəhəri eramızdan əvvəl mövcud olub, şəhərin yaxınlığında qədim dövrə aid Qalai Doxtər (Qız qalası) təpəsində tapılan əşyalar burada eramızdan əvvəl 5-ci minilliyə aid yaşayışın olduğunu göstərir. Bəzi iddialara görə, Makedoniyalı İsgəndərin yürüşü zamanı Qum şəhəri dağıdılıb və daha sonra Sasanilər dövründə Birinci Keybuad Qum şəhərini bərpa edib.

644-cü ildə Qum şəhəri Əbu Musa Əşərinin komandanlıq etdiyi müsəlman ərəb ordusu tərəfindən ələ keçirilib. 712-ci ildə Qum şəhəri Kufə şəhərindən olan şiə ərəblər tərəfindən yenidən qurulub. Bəzi məlumatlara görə, kufəlilər burada 7 yaşayış məntəqəsi tikib və bunları daha sonra qala divarı ilə birləşdirib. Qum isə bu 7 məntəqədən birinin adı olub.

Bəzi mənbələrə görə, Qum adı 12-ci İmamın adı ilə bağlıdır. Rəvayətə görə, Qum adını bu şəhərə Həzrət Məhəmməd (s.ə.s) verib və bu da şəhərin müqəddəsliyinə işarədir. Ancaq Qum şəhərinin şiə aləmində xüsusi yeri olmasının əsas səbəbi 7-ci İmam Musa əl-Kazimin (ə) qızı, 8-ci İmam Rzanın (ə) bacısı Həzrət Fatimə Məsumənin bu şəhərdə dəfn olunmasıdır. Tarixi məlumatlara görə, 8-ci İmam Rza (ə) Xorasana getdikdən sonra ailə üzvləri onu ziyarət məqsədilə İraqdan Xorasana (İndiki Məşhəd şəhəri - K.R.) yola düşüblər. Ancaq bugünkü Qum şəhəri yaxınlığında olarkən İmamın ailə üzvləri və qohumları hücuma məruz qalır. Bir hissəsi öldürülür. Sağ qalanlar isə Qum şəhərinə gəlirlər. Burada qısa müddət qaldıqdan sonra hicri 201-ci ildə (miladi 816-cı il - K.R.) xəstələnərək dünyasını dəyişir və Qumda dəfn olunur. Yeri gəlmişkən, Fatimə Məsumə Bakıda Bibiheybətdə dəfn olunan Həzrət Hakimənin bacısıdır və İslam tarixində elmli və yüksək savada malik qadınlardan biridir. Bundan başqa, İmam Rzanın (ə) da çox hörmət bəslədiyi bacısının ehtimal ki, yolda xəstələnib vəfat etməsinə görə "Məni ziyarət etmək istəyən, öncə bacım Fatiməni ziyarət etsin" dediyi haqda məşhur hədis var. Məhz bu səbəbdən şiə aləmində geniş yayılmış ənənəyə əsasən Məşhədə ziyarətə gedən zəvvarlar əsasən Quma gedərək Həzrət Məsuməni (ə) ziyarət edirlər.

Həzrət Məsumənin (ə) ziyarətgah kompleksi hicri tarixi ilə II əsrin sonunda tikilib. Əvvəlcə sərdabə şəklində olan məqbərə getdikcə genişləndirilir və burada böyük məqbərə kompleksinə çevrilir. 1135-ci ildə sərdabənin üzərində günbəz düzəldilir. Hazırdakı məqbərə kompleksi 1515-ci ildə Şah İsmayıl Səfəvinin əmri ilə tikilib.

Həzrət Məsumənin Qumda dəfn olunmasından sonra İslam dünyasının müxtəlif bölgələrindən insanlar bu şəhərə səfər etməyə başlayır. Bu səbəbdən də ilk illərdən Qumda dini mədrəsələr yaradılmağa başlayır. Tarixi məlumatlara əsasən, 12-ci əsrdə artıq Qumda 9 mədrəsə fəaliyyət göstərib. Ancaq sonrakı əsrlərdə müharibələr və işğallar səbəbi ilə bu mədrəsələrin fəaliyyəti zəifləyib.

Lakin Səfəvi İmperiyasının qurulması ilə Qumda dini-elmi fəaliyyət yenidən canlanıb. Birinci Şah Təhmasib zamanında Qumda məşhur Feyziyyə mədrəsəsi qurulur. Bunun bir səbəbi də Nəcəf və Kərbəla kimi şiə müqəddəs şəhərlərinin Osmanlı işğalı altına düşməsi olur. Şah Abbas zamanında Qum və Məşhəd şəhərləri inkişaf etdirilir.

Qumda ikinci müqəddəs məkan Cəmkəran məscididir. Rəvayətə əsasən, yerli sakinlərdən biri Cəmkəran ərazisində qaib 12-ci İmamla qarşılaşır və İmam Mehdi (ə) həmin şəxsə bu yerin müqəddəs torpaq olduğunu, burada məscid tikilməsini tövsiyə edir. Hicri 293-cü ildə Cəmkəran məscidi inşa olunur.

Səfəvilər, daha sonra Əfşarlar və Qacarlar dövründə Qum daha da inkişaf edib və elm mərkəzinə çevrilir. O zaman şiə aləminin əsas elm mərkəzi Nəcəf olub və Qum, eləcə də digər mərkəzlər onunla rəqabət edə bilməyib. İslam aləminin əsas üləması məhz Nəcəfdə oturub. Ancaq 20-ci əsrdə Qumun daha da inkişaf etməsi tendensiyası müşahidə olunur. Baxmayaraq ki, İranın şiələrinin, eləcə də Azərbaycan şiələrinin əsas fətva mərkəzi Nəcəf idi. Məşhur "Tənbəki üsyanı" məhz Nəcəfdə yaşayan Ayətullah Şirazinin fətvası əsasında baş vermişdi. Ancaq 20-ci əsrdə milli dövlətlərin yaranması, sərhədlərin bağlanması, həmçinin başqa faktorlar İranda elm mərkəzlərinin daha da populyarlaşmasına səbəb oldu. Daha bir mühüm detal ondan ibarət idi ki, Nəcəf dini məktəbi daha mühafizəkar, fəlsəfə, hətta təfsir kimi dini elmi sahələrə qapalı idi. İran isə hər zaman güclü fəlsəfə məktəbi olan bir ölkədir. Bu səbəbdən də Qum sürətlə böyüyürdü. 19-20-ci əsrdə şiə aləminin böyük üləmaları ömürlərinin bir hissəsini Qumda keçirirdilər. Ayətullah Məhəmməd Hüseyn Təbətəbai, Məhəmməd Əli Əraki, Məhəmməd Rza Gülpayqani, Əbülqasim Kaşani, Mürtəza Mütəhhəri, Ayətullah Ruhullah Xomeyni, Ayətullah Seyid Hüseyn Təbatəbai Burucerdi və eləcə də hazırda sağ olan alimlər yaşayıb.

Qumda 500-ə yaxın böyük islam alimi və müqəddəslərinin məzarları yerləşir. Hər il milyonlarla insan bu şəhəri ziyarət edir. Eyni zamanda şiə dünyasının böyük üləmaları və təhsil mərkəzləri bu şəhərdə yerləşir. Qumda təxminən 300-ə yaxın mədrəsə yerləşir. Onların bir qismi ərəbcə, yerdə qalanları farsca təhsil verir. Bəzi məlumatlara görə, Qum Elmiyyə Hövzəsində 90 mindən çox tələbə və müəllim var. Onların 20 mini xarici ölkə vətəndaşıdır. Dini dərslər ilkin hazırlıq, dil dərsləri ilə başlayır daha sonra "səth" dərslərindən başlayır "xaric dərsləri" mərhələsinə qədər davam edir. Ən üst dərəcə Ayətullah-Üzma, yəni böyük ayətullah - müctəhiddir. İranda ümumi olaraq 7 müctəhid var. Ancaq ictihad ( dini elmlər əsasında hökmlər çıxaracaq elmi səviyyə - K.R.) dərəcəsinə yetişmiş yüzlərlə alim var. Bundan başqa, İran ordusunda xidmət edən din xadimləri də Qumda yetişir.

İran inqilabının lideri Ayətullah Ruhullah Xomeyni Qumda yaşayıb və siyasi mübarizəsini burada aparıb. İlk siyasi islamçı ardıcılları da burada yetişib. Daha sonra İraqa sürgün olunsa da, Qum siyasi islam, islam inqilabı ideologiyasının əsas mərkəzlərindən biri idi.

Ancaq inqilabdan sonra din xadimləri və dövlət bürokratiyası arasında anlaşmazlıqlar yarandığı üçün ali dini hakimiyyəti, yəni Vəliyyi-Fəqih, eləcə də Qumda "guşənişin" olan yaşlı ayətullahlar siyasi proseslərdən kənar dayanmağa çalışırlar. Lakin hazırkı İran Respublikası ideoloji olaraq İslam ideologiyasına əsaslandığı üçün dövlətin əsas sütunu məhz Qumda oturan ruhanilərdir. Ali dini liderin yanında olan "Şurayi Negahban" (Konstitusiya Qoruyucular Şurası - K.R.) eləcə də 83 nəfərdən ibarət ruhanilər məclisi - "Şurayi Xubreqan" (Mütəxəssislər Məclisi - K.R.) ruhanilərdən ibarətdir.

Qumda dini təhsil pulsuzdur. Şiə etiqadına əsasən sağlığında Peyğəmbər və İmama (ə) çatmalı olan "xüms" vergisi Qeyb zamanı müctəhidlərə ödənir və bu şəri vergilərin bir qismi dini təhsilə, yəni mədrəsələrin saxlanılmasına sərf olunur. Bu səbəbdən də dünyanın hansı ölkəsindən olmasından asılı olmayaraq Qumda, eləcə də digər dini təhsil mərkəzlərində təhsil alanların xərcləri dini vergilərdən təmin edilir.

İraqda Səddamın dövrü, daha sonra işğal nəticəsində Nəcəf əvvəlki gücünü itirib və Qum daha çox parlayıb. Hazırda İslam dünyasında ən böyük elmi mərkəzlərdən birinə çevrilib.

**❑ Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**





# Bu gün ilk finalçı bilinəcək: 78-ci qarşılaşma, "xoruz"ların bəxti və...

## Fransa millisinin heyətində xüsusi dəyişiklik olmasa da, Belçika oyuna itkilərlə çıxır





**Bu gün Rusiyada keçirilən futbol üzrə XXI dünya çempionatında ilk finalçının adı biliněcək. Saat 22:00-da Sankt-Peterburqda Fransa-Belçika milliləri ilk yarımfinalda, amma... 78-ci dəfə qarşılaşacaqlar.**

İki qonşu dövlətin mili komandalarının qarşılaşma tarixi ötən əsrin əvvəlinə gedib çıxır. Belə ki, komandalar ilk dəfə 1904-cü ildə aralarında yoldaşlıq görüşü keçiriblər. Həmin oyun 3:3 hesabı ilə başa çatıb. Mundiallar tarixində ilk qarşılaşmaları isə 1938-ci il çempionatında olub. 1\8-də Fransa rəqiblərini 3:1 hesabı ilə məğlub edib. Komandalar bir neçə dəfə Avropa çempionatının seçmə mərhələlərində də bir qrupda mübarizə aparıblar. 1984-cü il Avropa çempionatında isə bir qrupa düşüblər. Həmin görüşdə fransızlar rəqib qapısında 5 cavabsız top keçiriblər. 1986-cı il Avropa çempionatında isə 3-cü yer uğrunda görüşdə əsas vaxt 2:2 hesabı ilə başa çatıb. Əlavə olunmuş vaxta isə Fransa milisi daha 2 top vuraraq Belçikanı medalsız qoyub. Sonuncu dəfə bu komandalar 2015-ci ildə yoldaşlıq görüşündə güclərini sınayıblar. Fransada keçirilən görüşdə qonaq komanda 3:4 hesabı ilə qələbə qazanıb. Ümumilkdə, Belçika 31, fransızlar isə 26 dəfə sevinən tərəf olublar, 20 görüş heç-heçə bitib. Qolların sayına görə belçikalılar irəlilədədilər:166:135.

Fransa qrupda 7 xal toplayaraq ilk mərhələnin lideri olub. 1\8-də Argentinanı, 1\4-də isə Uruqvayı evə göndərən fransızlar çempionluğa iddialarını ortaya qoydular. İlk oyunlarda rəqiblərinin qapısına minimal top vuran fransızlar "pley-off" mərhələsində həm məhsuldar, həm də baxımlı oyun nümayiş etdirirlər. Sonuncu dəfə 20 il əvvəl çempionluğu bayram etmiş Fransa millisi bu tilsimi Rusiyada qırmağa çox iddialıdır. Fransa məlumdur ki, dünya çempionatının ən bahalı komandasıdır, heyətində çox məşhur futbolçular var. Komanda həm də xeyli gəncləşib. Xüsusilə 19 yaşlı Kilian Mbappenin bu gün Argentina ilə oyunda olduğu kimi (2 top vurub, bir məhsuldar ötürmə və penalti qazanıb) özünü göstərəcəyi gözlənilir. Antuan Qrizmann, Usman Dembele də Belçinanın müdafiəsini yarmağa çalışacaqlar. Didye Deşam artıq 6 ildir ki, komandaya rəhbərlik edir, amma Fransanın heç bir uğuru yoxdur. Bu, böyük ehtimalla onun üçün də son şansdır.

Belçika da son illərin ən yaxşı komandası ilə mundiala gəlib və əla nəticələr göstərib. Bu komandanın oyununa baxmaq doğrudan da xüsusi zövqdür. Belçika mundialda yeganə komandadır ki, keçirdiyi 5 görüşün hamısında və əsas vaxtda qalib gəlib. Belçika 23 oyundur ki, məğlubiyyət nə olduğunu bilmir.

Mütəxəssislərə görə, Belçikanın orta xətti indi dünyada ən güclü və etibarlıdır. Komandanın ispaniyalı baş məşqçisi Roberto Martinesin qurduğu taktika oyun planı hələ ki komandaya uğur gətirir. Məşqçilər korpusunda olan Terri Anri isə Fransa millisini yaxşı tanıyır və bu gün onun məsləhətləri də çox işə yarıyacaq. Fransa milisinin forvardı Olivye Jiru Anrinin rəqib düşərgəsində yer almasından məyusluğunu gizlətməyib. Futbolçu Anrinin Fransa futbolunun ən məşhur simalarından biri olduğunu qeyd edərək, "Təəssüf ki, o, bilik və bacarığını mənə yox, başqasına öyrədir" deyib. Jiru "İstərdim ki, Belçika ilə matçın sonunda o, səhv etdiyini başa düşsün" deyərək inciklikləri gizlətməyib.

**Belçika millisinin müdafiəçisi Tomas Vermalen DÇ-Fransanın mundialda ən ambisiyalı komandalardan biri olduğunu deyib. Onun sözlərinə görə, yarımfinal Braziliya ilə oyundan da çətin olacaq:** "Fransa əvvəldən də turnirin favoritlərindən biri idi. Bu səbəbdən də düşünürəm ki, qarşıdakı matç Braziliya ilə oyundan da çətin keçəcək. Artıq Braziliya ilə matçı unutmuşuq. Hazırda bütün fikrimiz Fransa ilə oyuna yönəlib. Bu komandanı necə məğlub etmək barədə düşünürük. Yarımfinalda uduzsaq, çox məyus olacağıq".

Belçikanın yarımmüdafiəçisi Eden Azar Fransa ilə oyun ərəfəsi rəqib gənc forvardı Kilian Mbappeni tərifləyib. "Mən onunla bir neçə dəfə telefonla danışmışam. Uşaqlıqda o mənim necə oynamağıma baxırdı, indi mən onun necə oynadığına baxıram. 19 yaşında bu cür oyun göstərmək hər cür tərifə və hörmətə layiqdir. O, "Qızıl top" almağa ən potensial namizəddir. Mən isə düşünürəm ki, Mbappe artıq bu mükafatı almağı haqq edib" deyə, Azar bildirib.

Yeri gəlmişkən, Fransa millisinin heyətində xüsusi dəyişiklik olmasa da, Belçika oyuna itkilərlə çıxır. Belə ki, komandanın əsas müdafiə xətt oyunçularından olan Menye Braziliya ilə oyunda ikinci sarı vərəqə aldığı üçün bu oyunu buraxmalı olacaq. Onu Yannik Karraskonun əvəz edəcəyi gözlənilir. Fars əsilli Naser Şadlinin də zədə səbəbindən meydana çıxa bilməyəcəyi deyilir.

Bəs şanslar? Mənə qalsa, bu oyunun fovariti Belçika millisidir. Onlar tənqidlərə rəğmən, bu mundialın ən yaxşı beş komandası sırasında olan Braziliyanı evə göndərməklə çempionluğa çox yaxınlaşdılar. Fransızların həmişə bir az bəxtləri "xoruz" olur, "pley-off" da lotereya kimidir, bir qol hərdən hər şeyi həll edir. Məncə, Fransa-Belçika oyunu mundialın yarımfinalına layiq qarşılaşma olacaq. 78-ci dəfə kim qalib gələcək? Dünyanın bukmeyker kontorları əsasən Fransa deyir, biz Belçika deyək...

Fransa - Belçika matçını uruqvaylı hakimlər birqadası idarə edəcək. Görüşün baş hakimi Andres Kunya olacaq. Ona həmyerliləri Nikolas Taran və Maurisio Espinoza kömək edəcək. Qarşılaşmanın dördüncü hakimi funksiyasını meksikalı Sezar Ramos yerinə yetirəcək.

**Nazim SABİROĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 147 (7036) 10 iyul 2018



## Stomatoloqun fırıldağı hamını şoka saldı

Almaniyanın Potsdam-Mittelmark rayonunda 43 yaşlı stomatoloq külli miqdarda sığorta haqqı almaq üçün öz barmağını kəsib. Bu hərəkətinə görə dələduzluq maddəsi ilə ittiham edilən və 1 il müddətinə şərti azadlıqdan məhrum edilən stomatoloq isə bunun iftira olduğunu deyib. Onun dediyinə görə, ötən ilin martında çalışdığı stomatoloji kabinetə iki naməlum şəxs girərək silah gücü ilə ondan pul və qızıl tələb edib. Onlara yox cavabı verəndə isə soyğunçular onun baş barmağını kəsiblər. Amma istintaqçılar bu olayı araşdıranda maraqlı faktla qarşılaşıblar. Stomatoloji kabinetdə qan izləri ilə yanaşı ağrıkəsici izləri də aşkarlanıb və istintaq müəyyən edib ki, həkimin kabinetinə heç kim hücum etməyib. O, iş qabiliyyətini itirdiyi bəhanəsi ilə 600 min avro məbləğində kompensasiyanı ala bilmək üçün barmağını özü kəsib. Bundan başqa, stomatoloqun hücum qurbanı olaraq sığorta şirkətindən 250 min avro məbləğində vəsait alacağı da gözlənilirdi.

# Bir insan qəfil varlansa...

Bir anda çox böyük pullar qazanmaq beyni məhv edir. Amerikalı alimlər bu nəticəyə gəliblər. Onların fikrincə, bir anda böyük miqdarda lotereya udan şəxslərin beynində pulun da təsiri ilə ciddi dəyişiklik yaşanır, hətta həyatları alt-üst olur. Alimlər bunu sübut etmək üçün daha öncə Amerikada lotereyadan 558 milyon dollar udan Mark Hill və həyat yoldaşı Sindi üzərində araşdırma aparıb. Discovery News-da yer alan xəbərə görə, Mark və Sindinin beyinləri hormon ifrazı nəticəsində yaşanan dəyişikliklərə görə yaxın zamanda normal bir beyindən fərqli reaksiyalar göstərməyə başlayacaq. İlk zamanlarda hədsiz miqdarda ifraz edilən dopamin adlı maddə daha sonra beyində qarmaşıq bir biokimyəvi təsir nəticəsində öz yerini gərginlik və depressiyaya verə bilir. Bu zaman iradəsi zəif olan adamların dəli olma ehtimalı da güclüdür. Alimlər onu da sübut edib ki, qısa vaxtda çox pula sahib olmaqla insan xoşbəxtlik yox, diqqət qazanır.



# Uşaqlarının sayı çox olduğu üçün yaxşı yaşayır

33 yaşındakı Çerli Prudham dövlətdən ildə 40 min ingilis sterlinqi məbləğində yardım pulu alır və heç yerdə işləmir. Çünki gənc qadının 12 uşağı var və 13-cü uşağı üçün donor ata axtarır. İngiltərədə bir səhər proqramında canlı yayıma qatılan Prudham mübahisələrə səbəb olub. Çünki ingilis tamaşaçılar onun, sadəcə, rahat yaşamaq üçün uşaq dünyaya gətirdiyini bildiriblər. Gələn tənqidlərə reaksiya verən qadın isə cəmiyyət qarşısında üzr istəyəcək heç nəyi olmadığını deyib: “Mən, sadəcə, uşaq doğmağa asılıyam. Uşağım az olsa, özümü pis hiss edirəm. Aldığım bütün pul cibimə getmir, səmimi olaq. Amma ailəmi düşünürəm. Qaydaları da mən qoymuram, bu, hökumətin qaydalarıdır. Uşaqlarım da gələcəyin vergi mükəlləfləridir”.



## Uşaqlara bu sözləri demək olmaz

Uşaqlarına tez-tez öyüd-nəsihət verən valideynlər bir çox hallarda ciddi, strateji səhvlərə yol verirlər. Belə ki, ata-ananın dedikləri bəzi sözlər uşaqların psixologiyasına zərbə vurur, onlarda travma yaradır. Amerikalı alimlər bu cümlələri belə sıralayıblar: 1. “Məni utandırma” 2. “Mən sənin yaşında olanda...” 3. “Başqalarının uşaqlarına bax...” 4. “Yeməyini yeməsən, böyüyə bilməzsən” 5. “Sən də anan/atan kimisən” 6. “Səndən bir söz belə eşitmək istəmirəm” 7. “Bunu etsən səni sevərəm”.

Alimlər hesab edir ki, bu cümlələrin hər biri hansısa formada uşaqlarda kompleks yaradır və onların şəxsiyyət kimi formalaşmasına mane olur.




**QOÇ** - Fiziki cəhətdən zəiflədiyinizdən fəaliyyət barədə az düşünün. Hansısa riskli işə baş qoşmağa dəyməz. Saat 15-dən sonra şəxsi büdcənizdə müəyyən artımlar gözlənilir. Səfərə çıxmayın.

**BUĞA** - Olduqca rəvan bir gündür. Çoxsaylı və maraqlı hadisələrlə rastlaşacaqsınız. Amma acıdil adamların atmacalarına təmkinlə yanaşmalısınız. Sürprizlər də gözlənilir.

**ƏKİZLƏR** - Adətən ilin bu ərəfəsində Ay sizin bürcdə olanda mütləq səhhətlə bağlı problemlə üzləşirsiniz. Bunu nəzərə alıb qeyri-ənənəvi işlərdən uzaq olun. Yalnız səfərə çıxmaq uğurludur.

**XƏRÇƏNG** - Göy qübbəsi süstlük içində olduğunuzu göstərir. Amma ümidsizləşməməli, həyata daha nikbin nəzərlərlə baxmalısınız. Kollektiv şəkildə mənəvi istirahət etmək istəyirsinizsə, tələsin.

**ŞİR** - Başqalarının adınızdan istifadə etməsinə imkan verməyin. Çalışın ki, öz işinizə özünüz qərar verəsiniz. Səhhətinizə fikir verməyi tövsiyə edən ulduzlar varlanacağınızı da bildirir.

**QIZ** - Yaxşı olar ki, zehni işlərinizi azaldıb daha çox dincələsiniz. Fəaliyyətə isə ümumiyyətlə ara verin. Günün ikinci yarısını ailə-sevgi münasibətlərinə həsr edin.

**TƏRƏZİ** - Büdcənizdə artım etmək üçün imkan qazana bilərsiniz. Bu səbəbdən də alacağınız əmanətləri əldə etmək üçün ciddi addımlar atın. Bu gün “çağırılmamış qonaq” rolunda çıxış etməyin.

**ƏQRƏB** - Əgər səhhətiniz qaydasındadırsa, başqa məsələlərdə nigarançılıq çəkməyəcəksiniz. Nahar ərəfəsində aldığınız dəvətlərdən imtina etməyə çalışın. Qiymətli əşyalarınızı bərk-bərk qoruyun.

**OXATAN** - Nahara qədər bütün ciddi işləri təxirə salın. Yoxsa gərginlikdən qurtula bilməyəcəksiniz. Bədxah insanlarla rastlaşma ehtimalınız da var. Bacardığınız qədər təmkinli olun.

**OĞLAQ** - Maddi rifahınız normal olsa da, münasibətlər zəminində müəyyən sıxıntılarla üzləşə bilərsiniz. Bu isə son vaxtlar güzəştə getməməyinizdən doğur. Nahardan sonra mənəvi istirahətə yer verin.

**SUTÖKƏN** - Maraqlı görüşləriniz gözlənilir. Ola bilsin ki, həsrətində olduğunuz şəxslərlə rastlaşasınız. Saat 14-17 arası yeni işlərlə bağlı səmərəli sövdələşmələriniz də mümkündür.

**BALIQLAR** - Gələcək perspektivlərlə bağlı apardığınız bütün sövdələşmələriniz uğurlu olacaq. Odur ki, istənilən görüşdən imtina etməməlisiniz. Bu təqvim alqı-satqı üçün də düşərli ola bilər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Günəşin doğmasını çəkən jurnalist həyatını itirdi



Amerikanın Nyu-Cersi ştatında gün doğmasını şəklini çəkmək istəyən jurnalist dünyasını dəyişib. Lenta.ru saytının xəbərinə görə, hadisə çimərliklərdən birində, meydançada baş verib. Fotoqraf 12 metrlik hündürlükdən yerə düşüb və yerindəcə keçinib. 68 yaşlı Mark Saymon həmin anda həyat yoldaşı ilə məzuniyyətdə idi. Maşında oturub ərinin gün doğuşunu çəkməsini gözləyən qadın onun gec gəldiyindən şübhələnərək, polisə bu haqda məlumat verib. Polislərin onu tapması isə çətin olub. Çünki o, meydançadan daşın üstünə düşüb və onu ordan çıxarmaq üçün dalğanın axınını gözləmək lazım gəlib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.